

## Rusiyalı politoloq:
“Ermənilər bilir ki, Zəngəzur - qədim Azərbaycan torpağıdır”

2




4

# Dünyanın ən mürəkkəb tuneli sayılan Severomuyski ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə uğurla tikilib

SƏS
№ 219 (6419) 1 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

## Tahir Budaqov:
**“Yeni Azərbaycan Partiyası və ”Nur Otan” Partiyası arasında səmərəli və qarşılıqlı əlaqələr yaradılıb”**



Müstəqillik bütün xalqların əsas sərvətidir. Qazaxıstan 30 il ərzində sosial, iqtisadi və siyasi sistemdə...

4




# Azərbaycan hərbi zəfərini diplomatiya meydanında təkrarlayır!

## Mina xəritələrinin verilməsində Ermənistanın dediyi yox, məhz Azərbaycanın istədiyi oldu

5




## Xocalıya necə qayıdacağıq? Müraciət edənlərin sayı artır

## Ağdamdan ən son görüntülər





## Elçin Quliyev: “Hansısa kənar təsirdən söhbət gedə bilməz”

4

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mi-17 tipli 20136 bort nömrəli helikopteri təlim məqsədilə Səngəçal...




## “Omikron” ştammını öyrənmək üçün alimlərə NƏ QƏDƏR VAXT LAZIMDIR?

16

# Pakistan Azərbaycan

## ilə qardaşlıq əlaqələrini yüksək qiymətləndirir



### Prezident İlham Əliyev Pakistanın müdafiə istehsalatı nazirini qəbul edib

**Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Xanım Zobaida Cəlalın səfərinin əməkdaşlığımızın genişləndirilməsi baxımından önəmi qeyd edildi.**

Dövlətimizin başçısı bu yaxınlarda Pakistan Prezidenti ilə görüşünü məmnunluqla xatırlayaraq bu görüşün çox uğurlu olduğunu və əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçiriləcək Azərbaycan-Pakistan Birgə Komissiyasının işinə toxunaraq bu tədbirin iqtisadi əməkdaşlığın genişlənməsi, ticarət dövriyyəsinin həcminin artırılması, biznes dairələri arasında əlaqələrin səviyyəsinin qaldırılması işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı investisiya qoyuluşu üçün prioritetlərin müəyyənləşdirilməsinin zəruriliyini də vurğuladı.

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Pakistanın Azərbaycanın ədalətli mövqeyinə verdiyi davamlı siyasi-mənəvi dəstəyə və qardaş mövqeyinə görə bir daha minnətdarlığını bildirdi və Azərbaycan xalqının bunu yüksək qiymətləndirdiyini vurğuladı. Dövlətimizin başçısı bu xüsusda qeyd etdi ki, Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində iştirak edən xarici şirkətlər sırasında Pakistan şirkətlərini də görməkdən məmnun olardı.

Nazir Zobaida Cəlal ölkəsinin Azərbaycan ilə qardaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini vurğulayaraq, bu münasibətlərin illər ərzində özünü doğrultduğunu bildirdi. O, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Qələbənin Pakistanda bayram tədbirləri ilə qeyd edildiyini bildirərək bunu ölkələrimiz arasında olan qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi.

Qonaq Azərbaycan-Pakistan Birgə Komissiyasının iclasının da əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirdi.

Görüşdə ticarət, enerji, nəqliyyat, turizm, təhsil və hərbi-texniki sahələr də daxil olmaqla əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyəti vurğulandı. Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq formatının müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Ölkələrimizin həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlarda daim bir-birini dəstəklədikləri xüsusi qeyd olundu.

# Rusiyalı politoloq:

## “Ermənilər bilir ki, Zəngəzur - qədim Azərbaycan torpağıdır”

**Rusiyalı ictimai xadim, politoloq, Siyasi Araşdırmalar İnstitutunun Baş direktoru Sergey Markov Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün nəticələrini pozitiv dəyərləndirib.**



S.Markov AZƏRTAC-ın müxbiri ilə söhbətində qeyd edib ki, görüş uğurlu keçib və onu irəliyə addım hesab etmək olar. O deyib: ”Bəyanatın birinci maddəsi, - ekspertlərin əksəriyyətinin nədənsə buna əhəmiyyət vermir, - danışıqların mühüm nəticəsidir. Bu maddə tərəflərin 2020-ci il 10 noyabr tarixli Bəyanatın müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduqlarını təsdiqləmələri barədədir. Çoxlarının öz-özlüyündə anlaşıqlı hesab etdiyi bu maddə həm də ona görə ikiqat əhəmiyyətlidir ki, son vaxtlar Ermənistanda 10 noyabr tarixli sülh sazişi barədə tənqidi fikirlər əmələ gəlib. Biz bilirik ki, hətta bunun əleyhinə nümayişlər keçirilir. İkinci əhəmiyyətli nəticə sərhədlərin delimitasiyası və demarkasiyasıdır. Təsdiq edilib ki, ilin sonunadək konkret mexanizm yaradılacaq. Paşinyan işçi qrupu formalaşdıracağını təsdiq edib. Yerevanda hansısa siyahılar tərtib edirlər. Bu, çox yaxşıdır, özü də xəritələr artıq hazırdır və onlar Rusiya baş qərargahındadır”.

Ekspertin fikrincə, danışıqlarda əldə olunan üçüncü nailiyyət ondan ibarətdir ki, Prezident Vladimir Putin Brüsseldə görüşlə bağlı onun Avropa İttifaqının rəhbəri ilə yaxşı əlaqələri olmasını bəyan edib. Politoloq vurğulayıb: ”Bu, bizdə ümid yaradır ki, Avropa İttifaqı 2020-ci il 10 noyabr tarixli razılaşmaya zərbə endirməyəcək. Axı belə təhlükə var idi ki, bu sazişin təşəbbüskarı qismində Rusiya çıxış etdiyinə görə, Avropa İttifaqı bu sazişi poza bilər. İndi Brüssel görüşünə dair bizdə pozitiv gözləntilər yaranır”.

S.Markov vurğulayıb ki, danışıqların əsas mövzularından biri də nəqliyyat dəhlizlərinin açılması məsələsi idi. O deyib: ”Bu istiqamətdə də yaxşı irəliləyişlər var. Bir neçə gündən sonra Moskvada Baş nazirlərin müavinlərinin görüşü təşkil olunacaq. Ola bilsin ki, onlar konkret razılaşmalara keçmək üçün liderlərdən razılıq alıblar. Rusiya sərhəd xidmətinin adı çəkiləndən sonra daha bir müəyyənlik yarandı. Bu, ona işarə edilə bilər ki, Zəngəzur dəhlizinin mühafizəsini məhz Rusiyanın sərhəd xidməti yerinə yetirəcək. İş orasındadır ki, Ermənistan Zəngəzur dəhlizinin iqtisadiyyata təkan verəcəyini başa düşür. Lakin o, qorxur ki, bu dəhliz gələcəkdə Zəngəzurun Ermənistandan Azərbaycana keçməsində siyasi cəhətdən hansısa dayaq, vasitə rolu oynaya bilər. Xüsusən ona görə ki, özü də onlar Zəngəzurun qədim Azərbaycan torpağı olduğunu bilirlər”.

Politoloqun sözlərinə görə, Zəngəzur dəhlizi məsələsinin həlli üçün bir çox texniki məsələlər müzakirə edilməlidir. Ola bilər ki, iki-üç həftə ərzində hansısa parametrlər müəyyən olunsun.

”Şübhəsiz, görüş Azərbaycan üçün uğurlu oldu. Birincisi, Zəngəzur dəhlizi mövzusu başlıca mövzu idi. İkincisi, jest dili deyilən bir anlayış var. Görüşü müşahidə edərək deyə bilərəm ki, İlham Əliyev və Vladimir Putin vahid komandadır, Paşinyan isə onlardan kənardadır. Bu, çox şey deməkdir. Mənə elə gəlir ki, bu, münaqişənin nizamlanmasında əsas rol oynayan Rusiya rəhbərliyi tərəfindən Azərbaycanın mövqeyinin eşidiləcəyinə zəmanətdir”, - deyə S.Markov sonda bildirib.





# Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub

Noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Türkiyə Prezidenti helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verib, həlak olanların ailə üzvlərinə səbir diləyib və yaralıların tezliklə sağalmasını arzulayıb.

Azərbaycan Prezidenti başsağlığına görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

# Əlaqələndirmə Qərargahının ötən bir illik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**Noyabrın 30-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın ötən bir illik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış və milli qürurumuzun təntənəsinə çevrilmiş tarixi Zəfərin Azərbaycanın inkişafında yeni dövrün başlanğıc nöqtəsinə çevrildiyini bildirib.



Samir Nuriyev keçirilən iclasın bir il ərzində görülmüş işlərin qiymətləndirilməsi baxımından Əlaqələndirmə Qərargahı üçün xüsusi önəm kəsb etdiyini diqqətə çatdırıb.

Qərargah rəhbəri dövlətimizin başçısının müəyyən etdiyi tapşırıqların, ötən dövr ərzində görülmüş işlərin onun tərəfindən daim diqqətdə saxlanmasının Azərbaycanın siyasi və iqtisadi potensialının işğaldan azad edilmiş ərazilərin tam dirçəlişinə hədəfləndiyinin göstəricisi olduğunu qeyd edib. Samir Nuriyev bu ərazilərin ən qısa zamanda bərpası və yenidən qurulması, bura qayıdışın tezliklə təmin edilməsi üçün həyata keçirilən tədbirlərin miqyasının və sürətinin daha da artırılmasının, qurumlararası koordinasiyanın və əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

İclasda Azərbaycan Respublikası Prezidentinin Qərargah qarşısında qoyduğu tapşırıqların icrasına dair məruzələr, həmçinin ötən bir il ərzində görülən işlər üzrə hesabatlar dinlənilib.

Bildirilib ki, bölgənin Ümumi Planının hazırlanması artıq yekun mərhələdədir, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin Baş planları dövlətimizin başçısının müvafiq tapşırıqları əsasında hazırlanıb və təqdim edilib. Digər şəhərlərin Baş planlarının hazırlanması isə sürətlə davam etdirilir. Dövlətimizin başçısının iştirakı ilə artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının ərazilərində salınacaq yaşayış binalarının təməli qoyulub.

İşğaldan azad edilmiş ərazilərin çoxsahəli potensialına uyğun olaraq bölgədə iqtisadi fəaliyyətin qısa zamanda bərpası istiqamətində görülmüş işlərə dair məlumat verilib. Sənaye zonalarının, istehsal obyektlərinin yaradılması və fəaliyyətinin təşkili, həmçinin bölgəyə investisiyaların cəlb edilməsi istiqamətində konkret addımlar atılıb. Ağdam Sənaye Parkının, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyulub, buraya potensial rezident və investorların cəlb edilməsi istiqamətində sahibkarlarla və dövlət qurumları ilə müvafiq iş aparılıb.

Kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərlə bağlı bildirilib ki, taxıl əkini məqsədilə artıq on minlərlə hektar ərazidə şumlama işləri aparılıb, bitkiçiliyin, heyvandarlığın, arıçılığın inkişafı üçün prioritet istiqamətlər müəyyən edilib.

Nəqliyyat infrastrukturunun inkişafı istiqamətində görülən işlər çərçivəsində 2021-ci ilin oktyabrın 26-da istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanının dünya praktikasında ən sürətli icra edilmiş infrastruktur layihələrindən biri olduğu qeyd edilib. Artıq Zəngilan Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır.

Ötən il noyabrın 16-da təməli qoyulan "Zəfər Yolu"nun tikintisi müvəffəqiyyətlə başa çatdırılıb və cari ilin noyabrın 7-də açılışı olub. İşğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər də sürətlə davam edir.

İclasda bölgədə elektrik enerjisinin təminatı ilə bağlı ötən il ərzində lazımi avadanlıqların quraşdırılması, yarımstansiyaların yenidən qurulması və bərpası, elektrik xətlərinin çəkilişi istiqamətində görülmüş işlər barədə məlumat verilib. Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlıda yarımstansiyaların tikintisinin qısa müddətdə başa çatdırılaraq istifadəyə verildiyi, digər enerji infrastrukturu obyektlərində bərpa və gücləndirmə işlərinin davam etdirildiyi vurğulanıb. Həmçinin işğaldan azad edilmiş ərazilərdə "Yaşıl enerji" zonasının tətbiq edilməsinə dair konsepsiya hazırlanıb.

Ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə mədəniyyət abidələrinin bərpası və turizm infrastrukturunun yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Tarix-mədəniyyət abidələrinə sistemli baxış keçirilməsi, onların qeydiyyatının aparılılması istiqamətində görülən işlər yekunlaşdırılıb. Şuşa şəhərində "Xarıbülbül" və "Qarabağ" otelləri istifadəyə verilib. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri Şuşaya gətirilib. Görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsi, büstü, Natəvan bulağı, Bülbülün ev muzeyi, Yuxarı Gövhərağa məscidi qısa müddətdə bərpa edilib. Aşağı Gövhərağa və Saatlı Məscidlərinin, Mehmandarovların evinin bərpası işləri davam etdirilir. Bir sıra şəhərlərdə yeni Zəfər muzeylərinin və memorial komplekslərin təməli qoyulub.

30 ilə yaxın davam edən işğal müddətində Azərbaycan təbiəti, ətraf mühiti və təbii sərvətlərinə vurulan zərərin aradan qaldırılması, bölgənin təbii ekosisteminin, bioloji müxtəlifliyinin bərpası, qorunması və yaşıl enerji məkanlarının artırılması istiqamətində görülmüş işlərə dair məruzə dinlənilib. Azərbaycan Prezidentinin müvafiq Sərəncamından irəli gələn tapşırıqlar üzrə Zəngilan rayonu ərazisində Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpa edilməsi istiqamətində işlərə başlanıldığı diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, o cümlədən "Böyük Qayıdış" çərçivəsində həyata keçirilən tədbirlər fasiləsiz minatəmizləmə fəaliyyəti ilə müşayiət olunur. İşğaldan azad olunmuş ərazilərdə ötən bir il ərzində 20 min hektara yaxın ərazinin minalardan təmizləndiyi bildirilib.

Yekun çıxışında Qərargah rəhbəri Samir Nuriyev dövlətimizin başçısının "Döyüş meydanlarında əldə etdiyimiz tarixi Qələbə sülh və quruculuq qələbəsi ilə davam etməlidir" fikrinə istinad edərək bildirib ki, qazanılmış tarixi Zəfərinin kökündə Azərbaycan Prezidentinin dövlətimizin daha da güclənməsi və inkişafı üçün uzun illər ərzində böyük əzmlə gördüyü çoxşaxəli işlərin durduğu kimi, işğaldan azad edilmiş ərazilərin yenidən dirçəldilməsi və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi də dövlət başçısının böyük əzmkarlığı, qətiyyəti və güclü siyasi iradəsinə söykənir. İclasda qarşıda duran vəzifələrin icrası ilə əlaqədar növbəti addımlar müəyyən olunub və müvafiq tapşırıqlar verilib.

# YAP Sədrinin müavini

## beynəlxalq tədbirdə iştirak edib

**Qazaxıstanın paytaxtı Nur-Sultanda "Nur Otan" Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən "Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumu noyabrın 30-da işini davam etdirib. SİA-nın məlumatına görə, Azərbaycan forumda Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur.**





Tahir Budaqov forum çərçivəsində keçirilən "Siyasi partiyalar vətəndaş cəmiyyəti: regional aspekt", "Siyasi proseslərdə qadın və gənclərin iştirakının genişləndirilməsi" və "Seçkilər və yeni zaman: dünya təcrübəsi və Qazaxıstan" mövzularında sessiyalarda iştirak edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, həmçinin Qazaxıstanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirə də qatılıb. Rusiya, Çin, ABŞ, Avropa, Türkiyə və Mərkəzi Asiya da daxil olmaqla, 15 ölkədən 600-dən çox xarici və yerli ekspert, siyasi partiyaların, beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak etdikləri tədbirdə seçki sistemləri, müasir seçki meylləri, ənənəvi və alternativ ideologiyaların perspektivləri ilə bağlı müzakirələr aparılıb. Bununla da forum işini başa çatdırıb.



## Prezident və xanımı qəzada həlak olanların ailələrinə başsağlığı verib

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə başsağlığı verib.**

**Başsağlığı mətnində deyilir:**

**"2021-ci ilin noyabrın 30-da Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində heyət üzvlərinin həlak olması xəbəri bizi son dərəcə kədərləndirdi.**

**Bu ağır itkinin acısını Sizinlə yaşayır, dərdinizi bölüşür, Sizə və doğmalarınıza Mehriban xanım ilə birlikdə dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!".**

# Dünyanın ən mürəkkəb tuneli sayılan Severomuyski ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə uğurla tikilib

**Noyabrın 29-da "Rossiya-24" telekanalında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın "BTS-MOST" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə videomaterial yayımlanıb.**




AZƏRTAC xəbər verir ki, görüşdə ümummilli lider Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən həmin dövrdə dünyanın ən mürəkkəb tuneli sayılan və xarici ölkələrin şirkətlərinin inşa edə bilmədiyi Baykal-Amur Magistralındakı (BAM) Severomuyski tunelinin Ulu Öndərin birbaşa rəhbərliyi ilə uğurla tikildiyi xüsusi olaraq vurğulanıb.

Qeyd edək ki, sovet dövrünün möcüzələrindən sayılan Baykal-Amur Magistralının tikinti prosesində ittifaqın bütün ölkələrinin vətəndaşları və millətləri yaxından iştirak edirdilər. Azərbaycan xalqının nümayəndələri də onların arasında idi.

Magistral tikilən zamanlarda ulu öndər Heydər Əliyevin böyük layihə ilə bağlı xidmətləri bu gün də yüksək səviyyələrdə etiraf və təqdir olunur. 1974-cü ildə tikintisinə qərar verilən layihənin icrası məqsədilə o vaxt hələ Azərbaycana rəhbərlik edən Heydər Əliyevin tapşırığı ilə minlərlə gənc BAM-a yollandı. "Rossiya-24" telekanalında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın "BTS-MOST" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə yayımlanan videomaterialda Ulu Öndərin xidmətləri xüsusi qeyd olunub.

**Ruslan Baysarov:** Vladimir Vladimiroviç, Sizin diqqətinizi bir məqama cəlb etmək istəyirəm: on tunelin hamısı, o cümlədən ən mürəkkəb sayılan Severomuyski tuneli "Bamtonnelstroy" Səhmdar Cəmiyyətinin işçiləri tərəfindən tikilib. Əvvəlcə səkkiz tunelin olması planlaşdırılmışdı, sonra Hökumətin qərarı ilə daha iki tunel əlavə edildi. Bu şəkillərdə bizim işçilər tərəfindən tikilmiş tunellər, o cümlədən Severomuyski tuneli təsvir edilir. Severomuyski tuneli dünyada ən mürəkkəb tuneldir.

**Vladimir Putin:** Severeomuyski?

**Ruslan Baysarov:** Bəli. Bu, "Bamtonnelstroy" işçilərinin əzmkarlığının rəmzidir. Xarici mütəxəssislər bu tuneli tikməkdən imtina edir və bizim də imtina etməyimizi təklif edirdilər. 1984-cü ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev tunel inşaatçılarını dəstəkləmək üçün bu tikintiyə gəlmişdi. Bildiyiniz kimi, tunelin tikintisi başa çatdırıldı və o, indiyə qədər dünyada ən mürəkkəb tuneldir, çox maraqlı obyektdir.

**Vladimir Putin:** Onun mürəkkəbliyi nədən ibarətdir?

Ruslan Baysarov: Orada qrunt çox ağırdır, tektonik titrəyişlər, yeraltı cərəyanlar, qaz atmaları olub. Bu, çox mürəkkəb layihədir, lakin biz onu başa çatdırdıq.

**Vladimir Putin:** Uzunluğu 45 kilometrdir, eləmi?

Ruslan Baysarov: Biz orada cəmi 45 kilometr tunel tikmişik, bu tunelin uzunluğu isə 15,5 kilometrdir. Siyasi Büro əvvəlcə cəmi səkkiz tunel planlaşdırmışdı. Heydər Əliyev gələndə fəhlələr ona izah etdilər ki, əlavə iki dolanbac tunel tikilməsi də zəruridir. Heydər Əliyev "Bamtonnelstroy" işçiləri ilə birgə elə yerindəcə qərar qəbul etdi. Orada daha iki dolanbac tunel tikildi. Təsəvvür edirsinizmi? Bu, çox mürəkkəb, çox maraqlı obyektdir və indiyə qədər dünyada ən mürəkkəb obyektlərdən biri kimi qalır.

Xatırladaq ki, ulu öndər Heydər Əliyevin birbaşa nəzarət etdiyi BAM-ın tikintisi öz çətinliyi və ziddiyyətləri ilə seçilirdi. Miqyasına görə dünyada analoqu olmayan layihə böyük olduğu qədər də çoxsaylı problemlərə malik idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisi vüsət götürən magistralın 210-cu kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edildi və onun ətrafında Ulkan qəsəbəsi salındı. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilirdi. Onu da əlavə edək ki, Azərbaycandan ilk inşaat dəstəsi bu ərazilərə 1975-ci ilin əvvəlində gəlib. O vaxt Ulkan qəsəbəsinin yalnız adı var idi. İndi bu yerlər tanınmaz dərəcədə dəyişib, yeni insan məskəni salınıb. Azərbaycanlıların da iştirakı ilə tikilən və uzunluğu 209 kilometr olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırıldı.

Sovet cəmiyyətində BAM-ın tikintisinə münasibət də birmənalı deyildi. M. Qorbaçovun elan etdiyi yenidənqurmaya qədər onun nəhəngliyi dövlətin böyüklük və məğlubedilməzliyi kimi qəbul edilirdisə, yenidənqurma dövründə ötən illərin bütün nailiyyətlərinin kiçildilməsi prosesi başlandı. Ancaq Heydər Əliyevin ölkə sənayesinin inkişafı məqsədilə irəli sürdüyü təşəbbüslərin bu günün özündə də məmnunluqla xatırlanması Azərbaycan xalqı və onun Liderinə olan ehtiramın nümunəsi sayıla bilər. Təsadüfi deyil ki, 2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verildi. Tədbirdə Moskva, Bakı, Severebaykalsk, İrkutsk və digər şəhərlərdən yüksəksəviyyəli qonaqların iştirakı Ulu Öndərin əziz xatirəsinə olan ehtiramın təzahürü idi.

## Tahir Budaqov: "Yeni Azərbaycan Partiyası və "Nur Otan" Partiyası arasında səmərəli və qarşılıqlı əlaqələr yaradılıb"

Müstəqillik bütün xalqların əsas sərvətidir. Qazaxıstan 30 il ərzində sosial, iqtisadi və siyasi sistemdə islahatların aparılması baxımından böyük üstünlüklər əldə etmişdir. Qazaxıstan bu gün siyasi platformalarda iştirak edir və dövlətlərarası münasibətləri fəal şəkildə təşviq edir. Bu sözləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AZƏRTAC-a və Qazaxıstanın "Astana" telekanalına müsahibəsində deyib.




Bugünkü forumun ölkələr arasında siyasi və partiyalararası əlaqələrin yaxşılaşması ilə əlamətdar olduğunu bildirən T.Budaqov tədbirdə müasir tələblər və tendensiyalar nəzərə alınmaqla partiya islahatlarının müzakirə edildiyini bildirib.

Azərbaycan ilə Qazaxıstan arasında dostluq, qardaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinə toxunan T.Budaqov qeyd edib ki, prezidentlər İlham Əliyevin və Qasım-Jomart Tokayevin şəxsi dostluq əlaqələri, məqsədyönlü siyasəti ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafını təmin edən aparıcı amillərdir.

"Ümummilli lider Heydər Əliyev və elbası Nursultan Nazarbayev Azərbaycan-Qazaxıstan münasibətlərində etimadın yaranmasına və inkişafına, hakim Yeni Azərbaycan Partiyası və "Nur Otan" Partiyası arasında səmərəli və qarşılıqlı faydalı əlaqələrin yaradılmasına böyük töhfələr veriblər", - deyən T.Budaqov iki hakim partiyanın gənclər təşkilatları arasında yeni yaradılmış əməkdaşlığın, nəzərdə tutulan qarşılıqlı səfərlərin və birgə layihələrin həyata keçirildiyini vurğulayaraq bundan sonra da əlaqələrimizin inkişafına və dinamikasına mühüm töhfə verəcəyini qeyd edib.

## Elçin Quliyev: "Hansısa kənar təsirdən söhbət gedə bilməz"

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mi-17 tipli 20136 bort nömrəli helikopteri təlim məqsədilə Səngəçal aerodromundan saat 10:16-da havaya qalxaraq "Qaraheybət" təlim meydanı istiqamətinə uçuş edib. Helikopter saat 10:36-da təlim meydanında təyin olunmuş meydançaya eniş edərkən qəzaya uğrayıb.

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev helikopterin qəzaya uğraması ilə əlaqədar noyabrın 30-da təşkil olunan brifinqdə məlumat verib. Qəza nəticəsində 14 hərbi qulluqçumuzun həlak olduğunu, 2 hərbi qulluqçumuzun yaralandığını xatırladan DSX rəisi bildirib: "Həlak olmuş şəhidlərimizin valideynlərinə, yaxınlarına, qohumlarına, əzizlərinə, övladlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralıların hər ikisi Dövlət Sərhəd Xidmətinin hərbi hospitalındadırlar. Hər ikisi ilə telefon əlaqəm olub. Səhhətləri normaldır. Onların sağlamlığının bərpası üçün həkimlərimiz tərəfindən zəruri tədbirlər görülməkdədir".

Hadisə haqqında məruzə edilərkən dərhal müvafiq göstərişlər verdiyini vurğulayan Xidmət rəisi deyib: "Mənimlə bərabər, Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli zabitləri hadisə yerinə hərəkət etmişik. Hadisə yerini Baş Prokurorluğun, Dövlət Təhlükəsizliyi Xidmətinin,



Hərbi Prokurorluğun, Daxili İşlər Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə birlikdə ilkin müayinə etmişik. Müayinə etdikdən sonra tərəfimdən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə məruzə edilmişdir. Möhtərəm cənab Prezident tərəfindən hadisənin təfərrüatlarının daha da dəqiqləşdirilməsi, həlak olan şəhidlərimizin dəfn edilməsi, yaralanan hərbi qulluqçularımızın müalicəsi ilə əlaqədar müvafiq tapşırılar verilib".

Elçin Quliyev bildirib ki, Helikopterin pilotu - polkovnik Füzuli Cavadov ağır şəraitdə uçuşlara yüksək hazırlıqlı, uçuş imkanı və icazəsi olan pilotlarımızdan biridir. O, hələ Birinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edib. Helikopter demək olar ki, yenidir və qısa müddət əvvəl onda təmir işləri aparılıb.

Hadisə ilə əlaqədar ilkin müayinə işlərinin aparıldığını və qara qutunun tapıldığını vurğulayan DSX rəisi qeyd edib: "Hazırda qara qutunun müvafiq hissələri Baş Prokurorluqdadır. Baş Prokurorluq tərəfindən dərin təhlil işləri aparıldıqdan sonra hadisənin başvermə səbəbi daha da dəqiqləşdiriləcək. Hazırda hadisənin başvermə səbəbi haqqında dəqiq söz demək mümkün deyil. Ancaq onu deyə bilərik ki, hansısa kənar təsirdən söhbət gedə bilməz".

E.Quliyev bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyi hərbi təlimlərdə həlak olan hərbi qulluqçulara şəhid statusunun verilməsini nəzərdə tutur. Həlak olan hərbçilərin dəfn mərasimləri ilə bağlı məlumat verən DSX rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın müvafiq tapşırıqlar verdiklərini vurğulayaraq deyib: "Dəfn mərasimləri sabah gün ərzində valideynlərlə məsləhətləşmələr aparıldıqdan sonra həyata keçiriləcək. Bu haqda müvafiq tapşırıqlar verilib. Ancaq ilkin olaraq valideynlərlə məsləhətləşməliyik".

# Azərbaycan hərbi zəfərini diplomatiya meydanında təkrarlayır!



44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 illik işğalına son qoyan və Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ölkəmizə qələbələr qazandırmada davam edir. Dövlət başçısının qətiyyətli siyasəti nəticəsində Azərbaycan hərbi zəfərini diplomatiya meydanında təkrarlayır. Dövlət başçısı dəfələrlə çıxışlarında bildirib ki, azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir: "Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm süräti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın". Bu dəfə də Azərbaycan liderinin prinsipial siyasəti öz bəhrəsini verdi və Ermənistan indiyədək gizli saxladığı mina xəritələrinin bir hissəsini üzə çıxarmağa məcbur qaldı. 30 il ərzində Ağdam, Füzuli və digər ərazilərdə xüsusi müdafiə sədləri quran erməni silahlı qüvvələri demək olar ki, bütün ərazilərimizi minalamışdılar. Ermənistan bununla maksimum insan itkisinə nail olmağı, həmçinin Azərbaycanın Qarabağda başlatdığı yenidənqurma, bərpa işlərinə, xarici şirkətlərlə birgə həyata keçiriləcək meqalayihələrə süni əngəllər törətməyi qarşısına hədəf qoymuşdu. Bu mənada deyə bilərik ki, hər addımında ölüm saçan Ağdamın mina xəritələrinin əldə olunması çox böyük hadisədir. İlk növbədə ona görə ki, "mina səhrası"nı xatırladan işğaldan azad olunmuş torpaqların təmizlənməsi xeyli vaxt aparmaqla yanaşı, həmçinin, habelə çoxsaylı insan itkiləri ilə üzləşəcəkdik.

Statistik təhlil göstərir ki, mina hadisələrinin 51%-i azad edilmiş ərazilərə qanunsuz daxil olma zamanı, 26%-i təmizlənmiş ərazidən kənara çıxma hallarında baş verib. Ərazilər azad edildikdən sonra mülki şəxslər arasında 73 nəfər mina hadisələrinin qurbanı olub, onlardan 49 nəfəri yaralanıb, 24 nəfəri isə ölüb.

## Ermənistanın müharibə cinayətləri sərhəd tanımır

Qələbəmizdən bir il keçməsinə baxmayaraq, Ermənistan minalanmış sahələrin xəritəsini Azərbaycana təqdim etməməklə cinayətkarlığını, sülhə mane olduğunu göstərməkdir. İkincisi isə bu, bütün beynəlxalq qanunlara, prinsiplərə ziddir və hərbi cinayət hesab olunur. Ermənistandan fərqli olaraq, Azərbaycan tərəfi 10 noyabr razılaşmasına tam əməl edir, hətta bir sıra məsələlərdə humanistlik nümayiş etdirir. Məsələn, Ermənistan Kəlbəcərin boşaldılmasına əlavə 10 gün vaxt istədi və Azərbaycan tərəfi humanistlik göstərərək bu vaxtı verdi. Lakin eyni humanist addımları Ermənistan tərəfindən görünmədi. Əksinə, Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini gizlətməklə həm daha çox insanın həlak olmasına, həm də işğaldan azad edilmiş ərazilərin bərpasını ləngitməyə çalışdı. Məqsəd bəllidir: mümkün qədər çoxlu sayda insanın həlak olmasına nail olmaq, bu ərazilərə azərbaycanlıların qayıdışını maksimum uzatmaq.

## Ermənistan yenə "ağ bayraq" qaldırdı

Ancaq Prezident İlham Əliyev müharibədən sonrakı dövrdə təmkin, səbir nümayiş etdirir, mübarizəmizi diplomatiya arenasına daşıyaraq Ermənistanı hərbi cinayətlərdən əl çəkməyə, sülh yolunu tutmağa çağırırdı. Ölkə başçısı, eyni zamanda, beynəlxalq platformalarda Azərbaycan torpaqlarının minalarla çirkləndirilməsi məsələsini qaldıraraq, Ermənistan tərəfinin postmüharibə dövründə də hərbi cinayətləri davam etdirdiyini dünya ictimaiyyətinin diqqətinə çatdırır, aidiyyəti təşkilatları və dövlətləri mina xəritələrinin verilməsi üçün İrəvana təzyiqlər göstərməyə səsləyirdi. Bu istiqamətdə qətiyyətli mövqe sərgiləyən Azərbaycan lideri Ermənistanı Ağdamın mina xəritəsini verməyə məcbur etməklə, növbəti böyük qələbəyə imza atdı. Bununla Prezident İlham Əliyev Azərbaycanın döyüş meydanında olduğu kimi, diplomatik sferada da Ermənistandan üstün olduğunu nümayiş etdirdi. Azərbaycan Prezidentinin mükəmməl diplomatik gedişi və prinsipal siyasəti İrəvanı belə bir addım atmağa işğaldan azad olunmuş torpaqların mina xəritələrini verməyə vadar etdi.

Belə ki, ilk dəfə 2021-ci il iyunun 12-də Ermənistan Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim edib, bunun müqabilində 15 erməni hərbçisi ölkəsinə təhvil verilib. Humanitar aksiyanın həyata keçirilməsində Gürcüstanın baş naziri İrakli Qaribaşvili, ABŞ dövlət katibi Antoni Blinken, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və ATƏT-in İsveç sədrliyi vasitəçilik ediblər. Bu, 30 il işğal altında saxlanılan Qarabağın azad olunması ilə nəticələnmiş Zəfərdən sonra dövlətimizin başçısının növbəti qələbəsi kimi səciyyələndirilməlidir. Bu siyasətin nəticəsi olaraq böyük beynəlxalq aktorlar Ermənistanın minalanmış ərazilərin xəritəsini verməsi barədə Azərbaycan tərəfinin haqlı tələblərini, dövlət sərhədinin delimitasiyası ilə bağlı təklifləri dəstəkləyir. Bu gün bir sıra ölkələrin Azərbaycanda yeni təyin olunmuş qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edərkən bu barədə danışan Prezident İlham Əliyev deyib: "Əgər Ermənistan sülh istəyirsə, bizim də sülh sazişinə ehtiyacımız var. Əgər Ermənistan müharibə istəyirsə, ötən ilin payızındakı eyni nəticəni əldə edəcək. Əgər Ermənistan sülh istəyirsə, onlar delimitasiya ilə bağlı bizimlə danışıqlara başlamalıdır. Əgər onlar bunu etməsələr, peşman olacaqlar".

Və Ağdamdan sonra daha iki rayonun - Füzuli və Zəngilan rayonlarının mina xəritələrinin Azərbaycana təhvil verilməsi Prezident İlham Əliyevin qətiyyətli iradəsinin, bu istiqamətdə atdığı məqsədyönlü addımların məntiqi nəticəsi, növbəti parlaq diplomatik qələbəsidir. Bu, on minlərlə vətəndaşımızın həyatını və sağlamlığını təhlükələrdən xilas edəcək, işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirməyə imkan verəcək. Ağdam, onun ardınca Füzuli və Zəngilanda basdırılan minanın xəritələrinin əldə edilməsi dövlət başçımızın beynəlxalq siyasətdə və diplomatiyada növbəti qətiyyətli diplomatik qələbəsidir. Bəli, bu gün Prezident İlham Əliyev nəyi, necə və nə vaxt etmək lazımdırsa, yaxşı bilir. Və ermənilərin basdırdıqları minalar onların məqsədlərinə xidmət etmədi və öz əhəmiyyətini itirdi. Qürurvericidir ki, son 18 illik prezidentlik fəaliyyəti dövründə nəyi, necə və nə vaxt etmək lazımdırsa, yaxşı bilən "Dəmir yumruq" siyasətinin müəllifi Prezident İlham Əliyev 30 illik həsrətə 44 gün ərzində "Qarabağ Azərbaycandır" nidasını qoyduğu kimi, qələbəmizin 7 ayı ərzində işğaldan azad olunan Ağdam, onun ardınca Füzuli və Zəngilanda basdırılan minanın xəritələrinin əldə edilməsi dövlət başçımızın beynəlxalq siyasətdə və diplomatiyada növbəti qətiyyətli diplomatik qələbəsidir. Dövlət başçımızın dediyi kimi: "Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki əlbəttə ki, ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub". Bəli, hər bir minaya düşmə halı ermənilərin növbəti cinayətidir. Çünki 10 noyabrda imzalanmış üçtərəfli bəyanat regionda dayanıqlı və uzunmüddətli sülhün təmin edilməsinə hesablanmış bəyanatdır. Azərbaycan bu bəyanata uyğun olaraq hərbi əməliyyatlarını dayandırıb, növbəti mərhələnin isə dinc şəkildə icra olunması üçün əlindən gələni edir. Ancaq həmişə olduğu kimi, işğalçı Ermənistan üçtərəfli bəyanatın icrasını müəyyən qaydada təmin etsə də, özlərinin cinayətkar əməllərindən əl çəkmir, işğaldan azad olunmuş torpaqlarımızda minalanmış ərazilərin xəritəsini təqdim etmir və hər bir minaya düşmə halı ermənilərin növbəti cinayətidir, zaman gələcək ermənilər bunun da cavabını verəcək".

**Mina xəritələrinin verilməsində Ermənistanın dediyi yox, məhz Azərbaycanın istədiyi oldu**

Bəli, nə qədər Ermənistan 10 noyabr sazişinə sadiq qalmayaraq, mina xəritələrinin Azərbaycana təqdim edilməsindən boyun qaçırsa da, yenə də Azərbaycanın, Azərbaycan Prezidentinin dediyinə əməl etdi, çünki Azərbaycan diktə edən, bundan sonra da belə olacaq. Ermənistan bu reallığı qəbul edəcək, gücümüzü və bizim diktə edən tərəf olduğumuzu anlayacaq, Azərbaycanın sərhədlərini tanıyacaqlar. Azərbaycanla sülh sazişi imzalamağa məcbur olacaqlar və tezliklə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə əlaqədar olaraq Ermənistan da öz öhdəliyini yerinə yetirəcək.

Bir sözlə, biz minalanmış ərazilərin xəritələrini Ermənistandan bir-bir alaraq öz hədəflərimizə çatmaqdayıq, çünki zaman bizim xeyrimizə işləyib və bundan sonra da belə olacaq. Çünki biz qalib tərəfik və şərtləri də biz bəyan edirik. Əminik ki, bütün bunlar Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qarabağa, sözün bütün mənalarında, Böyük Qayıdış hərəkatını da sürətləndirəcək. Çünki Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

# Soçi görüşü

## Azərbaycanın güclü dövlət olduğunu və şərtləri diktə etdiyini sübut etdi

Xarici siyasətinin əsas istiqamətlərindən biri kimi ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması və münasibətlərdə yeni prioritetlərin müəyyənləşdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi uğurlar göz önündədir. Qarşılıqlı səfərlər, görüşlər fonunda bu əlaqələr daha da möhkəmlənir, yeni çalarlar əlavə olunur. Elə bu günlərdə, noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşü Azərbaycanın qələbəsi, Ermənistanın təxribatçı mövqeyinin iflasıdır. Dövlətimizin başçısı üçtərəfli görüş zamanı Azərbaycanın haqlı mövqeyini ortaya qoyaraq, konstruktivlik nümayiş etdirdiyini diqqətə çatdırıb: “Azərbaycan müharibənin fəsadlarının aradan qaldırılması və kommunikasiyaların açılması işində bu 1 il ərzində maksimum konstruktivlik nümayiş etdirib. Hesab edirəm ki, kommunikasiyaların açılmaması icra olunmamış əsas məsələlərdən biridir. Çünki ötən ilin noyabrında imzalanmış üçtərəfli bəyanatın bütün bəndləri demək olar ki, yerinə yetirilib. Düşünürəm ki, üçtərəfli görüşdə bu mövzu, həmçinin, Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyən olunması məsələsi müzakirə olunacaq. Biz Rusiyanın bu məsələdə dəstəyini, o cümlədən məsləhətçi qismində rolunu yüksək qiymətləndiririk. Azərbaycanla Ermənistan arasında sərhədlər delimitasiya olunmayıb. Ona görə də biz dəfələrlə açıq şəkildə bildirmişik ki, sərhədlərin təxirə salınmadan delimitasiyasına başlamağa hazırıq. Biz həmçinin, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşu kimi yaşamağa təşviq etmək üçün Ermənistan tərəfinə sülh müqaviləsi üzərində işə başlamağı açıq şəkildə təklif etmişik”.



*MUXTAR NAĞIYEV,*
*YAP Səbil rayon təşkilatının sədri*

### Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər göstərir ki, Zəngəzur dəhlizinin açılmasına doğru gedirik

Bir məqamı da vurğulamaq lazımdır ki, hər bir görüş müzakirə olunan məsələlər baxımından xüsusi əhəmiyyət kəsb edir. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının imzalanmasından ötən bir il həm sənəddə əksini tapan müddəaların icrası, həm də Zəfərimizin yaratdığı reallıqlar fonunda işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin geniş miqyas alması ilə diqqətçəkəndir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində qısa vaxtda uğurlu bərpa-quruculuq işlərini həyata keçirməsi regionun iqtisadi potensialını üzə çıxarmaq üçün daha geniş miqyaslı layihələrin həyata keçirilməsinə təkan verəcək, Qarabağın dirçəldilməsi prosesi daha da sürətlənəcək. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, biz istər danışıqlarla, istərsə güc yolu ilə Zəngəzur dəhlizini açacağıq. Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər göstərir ki, Zəngəzur dəhlizinin açılmasına doğru gedirik. Birmənalı olaraq demək lazımdır ki, Soçi görüşü Azərbaycanın növbəti diplomatik qələbəsidir və bu qələbənin müəllifi ölkə Prezidenti, qalib lider cənab İlham Əliyevdir. Çünki bütün şərtləri qaliblər diktə edir. Və Azərbaycan Prezidenti İlham Əliyev də bütün şərtləri diktə edən tərəfdir. Çünki Azərbaycan Vətən müharibəsində qalib gəlib və hazırda şərtləri diktə edən tərəfdir. Və Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail olub. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz. Və bu gün artıq Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpasına nail oldu. 30 illik əsarət altında olan torpaqlarımızın azadlığına son qoyuldu. Soçi görüşündə ən əsas məqam isə, münaqişə zonasında atəşkəs və bütün hərbi əməliyyatlar haqqında 9 noyabr 2020-ci il tarixli bəyanatın icrasına, eləcə də regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasına dair 11 yanvar 2021-ci il tarixli bəyanatı müzakirə edildi və qərara alındı ki, 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il bəyanatlarının bütün bəndlərinin bundan sonra da ardıcıl icra edilməsinə ciddi riayət olunsun. Bir sözlə, Soçidə imzalanmış bəyanat və ondan sonrakı mərhələrə gözlədiyimiz Brüssel görüşü, ümumilikdə iki ölkə arasında sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiya və demarkasiyası, beləliklə də bölgənin gələcəyinə yönəlmiş əsaslı, eyni zamanda, inkişaf dinamikasını təmin etməkdən ibarət olacaq. Dövlət başçımız İlham Əliyevin dediyi kimi: «Üçtərəfli görüşün qərarları regionda təhlükəsizliyi artıracaq və bu nəticələri çox gözləmək lazım gəlməyəcək...”

Bəli, Paşinyan da artıq anlamalıdır ki, şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Zatən Ermənistanın başqa yolu da yoxdur. Paşinyan və Ermənistan yeni reallıqları qəbul eləməli, eyni zamanda, həmin reallıqlarla barışmalıdır. Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq!

# İşğaldan azad olunan ərazilərdə bərpa-quruculuq işləri sürətlə reallaşır

**Prezident İlham Əliyev: "Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır"**




Ermənilərin azərbaycanlılara qarşı qatı millətçi davranışlarının təməlində faşizm ideologiyasının dayandığını müasir dünyamızın bütün qitələrində olan insanlar bir daha görmüş oldu. Ötən əsrin 90-cı illərinin əvvəllərində qəddarlıqla azərbaycanlıların qanını tökmüş, minlərlə günahsız insanı qətlə yetirmiş ermənilər tariximizdən silinməyəcək Xocalı soyqırımını həyata keçirdilər. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Ermənilər Ağdaban faciəsini xalqımıza yaşatdılar. Erməni separatçıları tərəfindən törədilmiş qırğın nəticəsində Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılmışdır. Kəndin 779 nəfər dinc sakininə müxtəlif növ işgəncələr verilmiş, 67 nəfər isə amansızlıqla qətlə yetirilmişdir. Bundan əlavə, 2 nəfər itkin düşmüş, 12 nəfər isə ağır bədən xəsarətləri almışdır. Kifayət qədər erməni vəhşiliyini sübuta yetirmək üçün tariximizdə faktlar var ki, onların hər biri ermənilərin faşist ideologiyasını təsdiq edir.

### “AZƏRBAYCAN ÖZÜ ÖZ ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA ETDİ”

Əlbəttə ki, bu gün dünya miqyasında söz sahibi olan Azərbaycanın iqtisadi gücü, hərbi qüdrəti, xalq-iqtidar birliyi dövlətimizin böyük gücə malik olduğunun təzahürüdür. 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünün göstəricisidir ki, xalqımız Zəfər tarixini yaşadı. Qorxaq, vəhşi erməniyə Azərbaycan oğulları döyüş məharətlərini, peşəkarlıqlarını göstərdilər. Azərbaycan Prezidenti İlham Əliyev Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında çıxışı zamanı ”2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu”, - deyərək, 44 günlük Vətən müharibəsinin Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndiyini diqqətə çatdırıb: ”Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi”.

### “İŞĞAL DÖVRÜNDƏ HƏMİN ƏRAZİLƏRDƏ BÜTÜN ŞƏHƏR VƏ KƏNDLƏR, O CÜMLƏDƏN MƏDƏNİ VƏ DİNİ İRS ABİDƏLƏRİ ERMƏNİSTAN TƏRƏFİNDƏN YERLƏ-YEKSAN EDİLİB”

Tarixin dönəmlərindən bizə məlumdur ki, ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Artıq bu günün diqtəsi tamamilə başqadır. Azərbaycan dünyaya çıxmaq imkanına malikdir. Beynəlxalq qurumlar, təşkilatlar, ümumilikdə dünya dövlətləri Azərbaycan ərazisini tanıyır, ona hörmətlə yanaşırlar. Azərbaycan 90-cı illərin əvvəllərinin dövrü ilə müqayisəyə gələ bilməz. Ölkəmizin 44 günlük Vətən müharibəsində Zəfər qazanması bunun bir daha sübutudur. Bu gün işğaldan azad olunmuş ərazilərdə məscidlərimiz, mədrəsələrimiz, körpülərimiz, məbədlərimiz nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Dövlət başçısı ”İşğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri Ermənistan tərəfindən yerlə-yeksan edilib”, - deyərək, diqqətə çatdırıb ki, bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir: ”İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər deymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır”.

30 ilə yaxın işğal altında olan ərazilərimizdə olan Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. erməni vandallığı ilə üz-üzə qalmışdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir.

### “BU İL BU MƏQSƏDLƏRƏ DÖVLƏT BÜDCƏSİNDƏN 1,3 MİLYARD ABŞ DOLLARI AYRILMIŞDIR”

Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənənələrini, onun mədəni kökünü özündə yaşadır. Artıq Azərbaycanın Zəfər tarixindən bir il ötür. İşğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Tarixi abidələrimiz təmir və bərpa olunur. Cənab Prezident çıxışı zamanı bildirdiyi kimi, ”ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır”.

Azərbaycan Böyük Qaydışı ilə dünyaya səs salıb. Qədim mədəniyyət paytaxtımız Şuşada ”Xarıbülbül” Musiqi Festivalı, Vaqif Poeziya Günləri keçirildi. Cəmi 8 ayda Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi, Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub. Ərazilərdə bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Yol, nəqliyyat, enerji infrastrukturlarının geniş miqyasda həyata keçirilməsi, ermənilər tərəfindən dağıdılmış məscidlərin, müxtəlif icmalara məxsus dini abidələrin bərpa və təmiri işğalçı Ermənistana zərbədir. Bu uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi əzmi, qətiyyəti ilə reallaşır.

***ZÜMRÜD BAYRAMOVA***

# Aşqabad sammitinin kulminasiya NÖQTƏSİ

**Azərbaycanın İƏT-in fəal üzvü olması, beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq qurması əlbəttə ki, təqdirəlayiqdir. Xüsusilə, tezliklə İƏT-in Tədqiqat Mərkəzinin Bakıda fəaliyyətə başlayacağı çox böyük uğur, nailiyyətdir. Çünki, İƏT-in Tədqiqat Mərkəzinin əsas məqsədi iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün İƏT-ə və üzv ölkələrə yardım etməkdir.**



Soçi görüşündən sonra cənab Prezident İƏT tribunasından da Zəngəzur dəhlizinin artıq reallığa çevrilməsini bəyan etdi, hansıki yeni nəqliyyat infrastrukturunun Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcəyi, İƏT-ə üzv ölkələrin də bu dəhlizdən böyük fayda götürəcəyi günün reallığıdır. Azərbaycanın son illər faktiki olaraq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməsi, Zəngəzur dəhlizinin reallaşması regionun nəqliyyat sektorunda yeni imkanlar yaradacağı anlamına gəlir. Digər tərəfdən isə Azərbaycanın işğaldan azad etdiyi torpaqlarda genişmiqyaslı yenidənqurma işlərinə başlaması, yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salması, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji bölgələri elan edilməsi kontekstində Azərbaycan Prezidentinin İƏT-də də "qurucu lider" kimi tanınması deməkdir.

Təbii ki, quruculuq işlərinə başlayan Azərbaycanla, "qurucu lider" kimi tanınan Azərbaycan Prezidenti ilə münasibətlərin tənzimlənməsində, yaxşılaşdırılmasında hər bir ölkə və həmin ölkənin rəhbəri maraqlıdır. Belə bir marağın təkcə biz özümüz şahidi olmadıq, bütün dünya bunun Aşqabaddakı XV Zirvə Toplantısında şahidi oldu. Şahidi oldu ki, dünya ölkələri, ələlxüsus region dövlətləri Azərbaycana maraq göstərir, ölkəmizlə münasibətlərin daha da yaxşılaşdırılması xüsusilə maraq dairəsindədir.

Ölkə başçısının, cənab Prezident İlham Əliyevin Aşqabadda İranın yeni seçilmiş dövlət başçısı İbrahim Rəisi ilə görüşünün, özü də ilk dəfə görüşünün reallaşması xüsusilə diqqət cəlb edir. Ələlxüsus, İran tərəfinin son vaxtlara qədər regionda məlum proseslərdə arzuolunmaz mövqeyini büruzə verməsindən, sonra da mövcud reallıqlarla barışaraq müsbət istiqamətdə münasibətlər qurmaq cəhdlərindən və meyillərindən sonra bu görüşün baş tutması diqqətdən heç cür yayına bilməz. Bu görüş həm də ondan xəbər verir ki, Azərbaycan və İran arasında olan münasibətlərdəki gərginlik atıq geridə qalıb. Ən vacib məqam isə ondan ibarətdir ki, İran tərəfi məhz Azərbaycanla əlaqələrin bərpa edilməsinin vacibliyini anlayır və bu Aşqabadda reallaşan görüş fonunda özünü büruzə verdi.

Doğrudur, beynəlxalq siyasətdə səmimilik, səmimiyyət axtarmaq, aramaq sadəlövhlükdür və belə bir niyyətimiz də yoxdur, amma sanki iki ölkə başçısının görüşü bir növ səmimi hislər, ən azından səmimi təsəvvürlər yaradırdı. Xüsusilə, İran kimi dəyişkən siyasət yürüdən, zaman-zaman fərqli yanaşma sərgiləyən bir dövlətin səmimi olması inandırıcı görünmədiyi halda, İranın yeni seçilən dövlət başçısının Azərbaycana meyilli olması, ölkə başçısı cənab İlham Əliyev ilə görüş keçirməsi ən azından bir sıra məqamlara aydınlıq gətirir. Bu da ondan ibarətdir ki, artıq İran Ermənistanın yanında olmağı deyil, Azərbaycanla münasibətləri normallaşdırmaq marağındadır. Artıq nəinki İran, bütün dövlətlər, dövlət başçıları yaxşı başa düşürlər ki, Azərbaycanla əlaqələrin yaxşılaşdırılması onların özləri üçün daha məqsədəuyğundur.

İran artıq dərk etməlidir və edir ki, Zəngəzur dəhlizinin açılması bu ölkənin maraqlarına xidmət etdiyindən həmin layihəni, həmin dəhlizi dəstəkləmək məcburiyyətindədir. Sözsüz ki, gec də olsa, İran artıq etiraf edir ki, dəhlizin açılması ilə Tehranın regionda tranzit imkanı artır. Deməli, ölkəsinin transit imkanlarını artıran dəhliz İran üçün maraq kəsb edir və artıq İran Ermənistanla deyil, Azərbaycanla əlaqələrdə maraqlıdır. Göründüyü kimi, rəsmi Tehran artıq regionda müharibədən sonrakı vəziyyəti, Azərbaycanın yaratdığı reallıqları qəbul etməyə başlayıb və bu özünü məhz Zəngəzur dəhlizinə münasibətdə, artıq yeni, fərqli yanaşmada büruzə verir. Əliyev-Rəisi görüşünün atmosferi elə bir təəssürat yaradır ki, sanki İran bu zamana qədər razılaşmadığı 3+3 formatına qoşulmaq həvəsindədir, hətta buna can atır. Məhz Aşqabadda XV Zirvə Toplantısı, iki görüşdə ölkəmizə olan maraq, iştirakçı dövlətlərin başçılarının bizi qələbə münasibəti ilə təbrik etməsi, İranın öz maraqlarının dəyişməsi və Azərbaycanla münasibətdə maraqlı olduğunu gizlətməməsi bu görüşün də ölkəmiz üçün hər mənada əhəmiyyətli olduğunu təsdiq edir. Bu baxımdan Azərbaycan üçün sammitin kulminasiya nöqtəsi cənab Prezident İlham Əliyevin iranlı həmkarı İbrahim Rəisi ilə görüşü hesab oluna bilər.

Nəzərə alsaq ki, hər iki ölkə rəhbərinin Aşqabadda görüşündən bir ay əvvələ kimi Azərbaycanın sərhədlərini pozaraq sülhməramlıların nəzarətində olan ərazilərimizə qeyri-qanuni yük daşıyan, Azərbaycanı İsraillə ona qarşı əməkdaşlıqda ittiham edərək, sərhədyanı ərazilərimizdə hərbi təlimlər keçirən İranın prezidenti cənab Prezident İlham Əliyevlə görüşü zamanı qardaşlıqdan söz açdı və bu heç də əbəs yerə, təsadüfi deyildi. Nə də, təbii ki, səbəbsiz ola bilməzdi. Cəmi iki aya yaxın bir müddət ərzində İranla Azərbaycanın münasibətlərinin yenidən bərpa olunması, əvvəlki səviyyəyə çatdırılması birbaşa olaraq, məhz Azərbaycanın dəstəyi ilə İranın qlobal Şərq-Qərb tərəfdaşlıq formatına qoşulması ilə bağlıdır və bunu da görünür, İran tərəfi yüksək qiymətləndirir.

Azərbaycanla münasibətlərin bərpasına kənar müdaxilənin yolverilməzliyini və qarşılıqlı problemlərin iki ölkə tərəfindən həll edilməsinin vacibliyini İran prezidentinin vurğulaması da təsadüfi deyil və sıra məqamlardan xəbər verir. Əvvəla, bu onu təsdiq edir ki, bu məsələdə İran tərəfi rəsmi Bakının müstəsna rolunu və iradəsini başa düşür, qəbul edir. Yəni, rəsmi Tehran məhz Azərbaycanın mövqeyini dəstəkləməyin özü üçün daha əhəmiyyətli olduğu qənaətindədir. Digər tərəfdən isə, bu, həm də açıq şəkildə etirafdır. "Heç vaxt imkan verməməliyik ki, digərləri bizim münasibətlərimizə müdaxilə etsinlər və öz məsələlərimizi özümüz həll etməliyik", deyən İran prezidenti bununla Ermənistanın mövqeyinin artıq bundan sonra münasibətlərə təsir edə bilməyəcəyini bir növ bəyan edir. Yəni, İran liderinin belə bir yanaşması əslində, ondan xəbər verir ki, bundan sonra erməni maraqları iki ölkə arasındakı münasibətlərə heç bir şəkildə təsir etməyəcək və artıq bölgədəki yeni reallıqları İran tərəfi də qəbul edir. Məhz buna görə də İran lideri ilə Azərbaycan Prezidentinin görüşünün sammitin kulminasiya nöqtəsi olduğu qənaətindəyik.

***İnam Hacıyev***

## Erməni diversantları sızıb yenidən ərazilərə mina yerləşdirə bilərlər

"İndiki məqamda Ermənistan siyasi rəhbərliyinin hazırkı durumu olduqca acınacaqlıdır. Ölkədə çox ciddi siyasi, hərbi, o cümlədən iqtisadi xaos hökm sürür. Belə bir vəziyyətdə onlardan normal, insanlığa yaraşar bir hərəkət gözləmək çətindir. Dünyanın dinc vaxtında bunlar özlərini yaxşı apara bilməyiblər. Bunlar bədbəxt xalqdırlar. Bunların nə milli psixologiyası, nə milli atributları, nə milli mübarizə prinsipləri, nə də dövlətçilik ənənələri var. Bildirmək istəyirəm ki, bu dəqiqə onların vəziyyəti yalnız hərbi cəhətdən yox, elə bu xəritələr məsələsində də xaotikdir. Bu mənada olduqca fərqli fikirlər var və vahid düşüncə yoxdur. Ölkədə həqiqətən ciddi bir xaotik vəziyyət hökm sürür". Bunu SİA-ya açıqlamasında hərbi ekspert İbrahim Rüstəmli deyib.




O, qeyd edib ki, ermənilər kliniki şok vəziyyətindədilər. Çünki Köçəryan-Sarksiyan hakimiyyəti bu xalqı şar kimi şişirtmişdi. Bu Ermənistan ordusunu, Ermənistan hökumətini birinci daxili auditoriyada o qədər yüksəltmişdilər ki, o qədər mifik bir qüvvə kimi təqdim etmişdilər ki, 44 günlük müharibədə bunlar nə qədər özləri haqqında yüksək düşünürdülərsə, bir o qədər alçaldılar. Bu kütləvi psixoz, kütləvi depressiya halıdır ki, bu gün erməni xalqının bu vəziyyətdə olmasına birbaşa məsuliyyət daşıyan şəxslər Köçəryanla, Sarksiyandır.

Bu mina məsələsinə gəlincə, məlum olduğu kimi 44 günlük müharibədə Azərbaycan Ordusu Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında Ermənistan ordusunun bütün infrastrukturunu sıradan çıxardı. Bu döyüş sürətli, həm düşünülmüş, həm də taktiki və strateji baxımdan mükəmməl bir döyüş oldu ki, ermənilər vəziyyətin bu yerdə olacağını yatsalar yuxularında görməzdilər. Ona görə də, indiki vəziyyətdə deyərdim ki, müəyyən ərazilərin xəritəsi heç onların özündə yoxdur. Ancaq ola bilməz ki, onlarda heç bir xəritə olmasın. Xəritələr olsa da 44 gündə onlar elə bir şok effektli məğlubiyyət yaşadılar ki, geri çəkiləndə inanmıram ki, mina basdırıb onun xəritəsini çəkələr. Bu mina məsələsi aktual məsələ olaraq qalır. Uzun müddətdə Azərbaycan üçün problem olaraq da qalacaq. Çünki məlum olduğu kimi mina elə bir silah növüdür ki, sən onu zərərsizləşdirməyincə o səni mütləq zərərsizləşdirəcək. 1914-1918-ci ildə birinci dünya müharibəsi baş verib, ancaq bu gün də Fransanın müəyyən əraziləri var ki, burada hələ də mina problemi yaşanır. Hətta Fransa hökuməti belə bir qərar qəbul etmişdi ki, həmin əraziyə qoyun sürüsü buraxaq. Bunu etdilər və xeyli qoyun bu zaman tələf olmuşdu. Heyvansevərlər buna etiraz etmişdilər, ancaq fransız hökuməti belə bir cavab vermişdi ki, adamların minaya düşüb ölməsindənsə, qoyunların minaya düşüb ölməsi daha yaxşıdır. Yəni onu demək istəyirəm ki, yüz il keçib ancaq mina problemi qalıb. Bu baxımdan demək istəyirəm ki, dövlətimiz bu sahədə çox böyük işlər görəcək və belə ərazilərin 80-90 faizini minadan tam təmizləyəcək. 100 faiz təmizləmə mümkün deyil.

Qeyd etmək lazımdır ki, ANAMA bu gün çox yaxşı işlər görür. Burada indi əsas məsələ ondan ibarətdir ki, səlahiyyətli şəxslərin, hüquq-mühafizə əməkdaşlarının təhlükəsizlik nişanlarına sivil insanlar əməl etməlidirlər. Ərazilərə icazəsiz daxil olmaq qəti qadağandır. Bu böyük insan itkisi və fəlakətlə nəticələnə bilər. Bu məsələyə ciddi yanaşmaq lazımdır. Hər bir insanın ölümü, şikəst qalması, yaralanması Azərbaycan dövləti üçün böyük itkidir.

Biz ermənilərdən xəritə gözləməməliyik. Ən yaxşısı yavaş-yavaş əraziləri təmizləməliyik. Bir də dağlıq coğrafi ərazilərimizdə, xüsusilə Kəlbəcər, Laçın istiqamətlərində müdafiə xəttini gücləndirməliyik ki, sızmalar olmasın. Çünki erməni millətçiləri, diversantları burada sızıb yenə ərazilərə mina yerləşdirə bilərlər. Bu tamamilə realdır. Bunun birinci Qarabağ müharibəsində şahidi olmuşuq".

***Turqay Musayev***

# İLHAM ƏLİYEV:

## “"Biz “peyvənd millətçiliyi”nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq”






Bütün dünyanı əhatə edən koronavirus pandemiyasının qarşısını almaq və yoluxma sayını minuma endirmək məqsədi ilə Azərbaycanda təxrəsalınmaz tədbirlər davamlı olaraq həyata keçirilir. Əlbəttə ki, ölkəmizdə pandemiya ciddi nəzarət altında saxlanıldığından Azərbaycan ”COVID-19”-la mübarizədə qabaqcıl ölkələr sırasındadır. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş tədbilər reallaşıb. Bu günə qədər dövlətimiz tərəfindən koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi barədə qərarlar verilib və əməli tədbirlər reallaşıb. Ölkəmizdə əhalinin vaksinasiya işləri uğurla reallaşır. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. ”Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndlənmə kampaniyasına başlamışdır. Ölkədə yetkin əhalinin 60 faizdən çoxuna iki doza peyvənd vurulmuşdur”, - deyə Azərbaycan Prezident İlham Əliyev Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında çıxışı zamanı bildirib. Nazirlər Kabineti tərəfindən qəbul olunmuş ”Vaksinasiya Strategiyasına” əsasən artıq xeyli sayda insanlar peyvənd olunub və vaksinasiya prosesi uğurla icra olunur. Artıq cari ilin noyabrın 28-də Azərbaycanda 26 min 530 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub. Vurulan vaksinlərin ümumi sayı 10 milyon 486 min 650, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 74 min 275, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 559 min 863 nəfər, ”buster” doza ilə peyvənd olunanların sayı isə 852 min 512 nəfər təşkil edir.

Əlbəttə ki, Azərbaycan ”COVID-19”-la bağlı milli və beynəlxalq səviyyədə ciddi səylər göstərərək qlobal səyləri səfərbər edən ilk ölkələrdən biridir. Azərbaycanın təşəbbüsü ilə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. ”Bu il Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilib” - deyə Cənab Prezident bildirib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib, Dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.

Dövlət başçısı bildirib ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atır: ”Biz ”peyvənd millətçiliyi”nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq. Bundan əlavə, Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardımı etmişdir”.

Azərbaycan peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan, pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib. Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi də mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəkləyir.

Cənab Prezident çıxışlarının birində davam edən ”peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyin narahatlıq doğurduğunu bildirmişdir: ”Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür”.

Dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

EKSPERT RƏYİ

# Artıq sülh sazişinin imzalanması qaçılmazdır



**“44 günlük Vətən müharibəsində tarixi qələbəmiz Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb və bu nüans Soçidə keçirilən görüşdə açıq-aydın nəzərə çarpırdı. Müzəffər ordunun Ali Baş Komandanı, qalib xalqın rəhbəri olan cənab prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyandan dəfələrlə üstün mövqe nümayiş etdirməklə suverenlik və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında müzakirələrin keçirilməsi, Azərbaycanın qalibiyyəti, Ermənistanın acı nəticələrə gətirib çıxaran fəlakətli məğlubiyyəti fonunda daha aydın görünürdü”. Bu fikirləri SİA-ya açıqlamasına politoloq İlyas Hüseynov deyib.**

Politoloqun sözlərinə görə, Ermənistanı sülh sazişinə məcburetmə istiqamətində rəsmi Bakının addımları da təqdirəlayiqdir: ”Eyni zamanda regionda sülhün, təhlükəsizliyin və sabitliyin qorunması istiqamətində Azərbaycanın sülhə məcburetmə əməliyyatı artıq öz nəticələrini göstərməkdədir. Həmçinin, Soçi görüşündə Azərbaycanın istəkləri əsasında danışıqlar masasında bir sıra məsələlər müzakirə edildi. Həm Azərbaycanla Ermənistan arasındakı sərhədlərin delimitasiya və demarkasiyası, eləcə də nəqliyyat və kommunikasiya xətlərinin açılması, iqtisadi rifaha əsaslanan əməkdaşlıq münasibətlərinin qurulması, son nəticədə sülh müqaviləsinə gətirib çıxara bilən addımlardır. Soçi görüşündə diplomatik jestlər, terminlərin istifadəsi, bədən dili və digər nəzərə çarpan elementlər Azərbaycanın müharibədə qələbəsindən xəbər verən bir digər görüntülər idi”.

İ.Hüseynov vurğulayıb ki, artıq sülh sazişinin imzalanması qaçılmazdır: ”Baxmayaraq ki, Ermənistanda müxalifətdə, eləcə də iqtidar daxilində revanşist fikirlərin geniş yayıldığını müşahidə edirik, lakin sülhün və sabitliyin qorunması ümumi olaraq regionda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. Bu xüsusda Azərbaycanın təşəbbüsləri də beynəlxalq aktorlar tərəfindən dəyərləndirilir. Həm Türk Şurası, həm İƏT çərçivəsində Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı Soçi görüşündən sonrakı fikirlərin cənab Prezident tərəfindəm ifadə olunması Azərbaycanın sülhpərvər siyasətinin göstəricisidir. Eyni zamanda Azərbaycan iqtisadi rıçaqların əldə olunması fonunda regionda təhlükəsizliyin qorunması istiqamətində addımlar atır və beynəlxalq ictimaiyyət tərəfindən də bu addımlar təqdir olunur”.

***Aysel Məmmədova***

# ”İranla Azərbaycan arasındakı əlaqələrin inkişafı regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcək”



**İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcək. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Azərbaycan Respublikasındakı keçmiş səfiri Möhsün Pakayin yerli mətbuata açıqlamasında deyib.**

O bildirib ki, Azərbaycanın Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin Tehrana səfəri hər iki tərəfin münasibətləri qoruyub saxlamaq və inkişaf etdirmək istəyində olduğunu göstərdi. İranın yeni hökumətinin xarici siyasətində qonşularla, o cümlədən Azərbaycanla əlaqələri inkişaf etdirmək prioritet istiqamətdir. İran ilə Azərbaycan beynəlxalq əhəmiyyət daşıyan iqtisadi layihələrin həyata keçməsi üçün birgə iş aparırlar.

”Şahin Mustafayevin səfəri zamanı İran rəsmiləri ilə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt-Astara dəmir yolunun çəkilişini müzakirə etməsi də təsadüfi xarakter daşımırdı. Bu layihə Fars körfəzi və Cənub-Şərqi Asiya ölkələri ilə Şimali Avropanı nəqliyyat baxımından birləşdirəcək. İran və Azərbaycan Asiya ilə Avropa arasında tranzit rolunu oynayacaq. Asiyadan Avropaya və əks istiqamətə daşınan yüklər İran ilə Azərbaycan ərazisindən tranzit olaraq keçəcək. Bu, çox əhəmiyyətli layihədir. Yolun Qəzvin-Rəşt hissəsi istismara buraxılıb. Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir”, - deyə keçmiş səfir bildirib.

M.Pakayin qeyd edib ki, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davam etməsi hər iki ölkənin iqtisadi inkişafı üçün mühüm xarakter daşıyır.

# “Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik”

**Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət ölkəmizi regionun davamlı inkişaf edən, məqsədlərinə doğru inamla irəliləyən dövlətinə çevirib. Ölkəmizdə bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzunu, çəkisini artırıb.**

Dövlət başçısının rəhbərliyi altında ölkədə yeni sosial infrastruktur obyektlərinin istifadəyə verilməsi, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi də uğurlarımızın göstəricisidir. Görülən işlərlə bərabər olaraq dövlət başçısı tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də böyük addımlar atılıb. Azərbaycanda magistral yollar müasir formada yenidən qurulub. Bir çox yaşayış məntəqəsini birləşdirən kəndlərin, yaşayış məntəqələrinin yol infrastrukturun yaxşılaşdırılması ilə bağlı dövlət başçısı son illər ərzində xeyli sayda sərəncamlar imzalayıb ki, bu da əhalinin rahatlığına xidmət edir. Əlbəttə ki, pandemiya dövründə yaşadığımız bir zamanda reallaşan bu və ya digər layihələr dövlətimizin gücünün göstəricisidir. Son illər ərzində dövlət başçısının rəhbərliyi ilə ölkədə həyata keçirilmiş iqtisadi və hərbi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət, dövlət və ordu quruculuğu və 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər çalan Azərbaycan bu gün 30 ilə yaxın işğal altında qalmış ərazilərimizdə də abadlıq-quruculuq işlərinə başlayıb, infrastruktur layihələr uğurla icra olunur.








## AZƏRBAYCANIN İQTİSADİ GÜCÜ VƏ DİNAMİK İNKİŞAFI İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRİMİZƏ YENİ HƏYAT GƏTİRƏCƏK

Şəhər və kəndlərimizə yeni bir həyat gəlib. Tarixi mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Nəhəng quruculuq işləri sırasında beynəlxalq hava limanlarını da qeyd etməliyik. Artıq Füzuli Beynəlxalq Hava Limanının açılışı da olub. Bu, o deməkdir ki, Azərbaycan qısa bir zamanda keçmiş köçkünlərini öz əzəli torpaqlarında rahat şəraitlə təmin edəcəkdir. Əlbəttə ki, işğaldan azad olunan ərazilərimiz mənfur düşmən tərəfindən dağıdılsa da, Azərbaycanın iqtisadi gücü, dinamik inkişaf bu yerlərin tezliklə dirçəldilməsində əsas amildir.

Koronavirus pandemiyasına qədər dünya qapılarının bir-birinin üzünə açıq olduğu zamanda ölkəmizə gələn turistlərdə ölkəmizin füsunkarlığı, təbiəti, onun mədəniyyəti, iqlimi heyrət hiss oyatmışdır. Dünya standartlarına cavab verən beşulduzlu otel və istirahət mərkəzləri, magistral yollar, dəmir yolları ölkəmizin simasını başdan-başa dəyişib. Respublika iqtisadiyyatının qüdrətini artıran bu yollar indi Avropa ölkələrinin yollarından heç də geri qalmır. Fərəhlidir ki, bu istiqamətdə işlərinin həcmi ilbəil artır.

Əlbəttə ki, Azərbaycan turizmindən söz açarkən Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, cənub mirvarisi Lənkəran, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara və onlarla belə bölgərimizin turizmi ilə bağlı yüksək fikirlər formalaşıb. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan. qədim tarixi abidələri, zəngin fauna və florası ilə seçilən Zaqatala şəhərindəki IV-V əsrlərə aid Alban məbədi, XIX əsrə aid "Zaqatala qalası", Car kəndindəki XIV əsrə aid "Cingöz qala", Mosul kəndindəki minarə, habelə rayonun əsrarəngiz təbiət guşələri, o cümlədən Zaqatala şəlaləsi, Xalxal gölü, Honzoqor dağı, Moorçay, Mazıx kəndində yerləşən şəlalə turistlər üçün böyük marağa səbəb olan gözəl məkanlardır. Bitki örtüyünün zənginliyinə və növ tərkibinin müxtəlifliyinə görə seçilən Qafqaz meşələrinin ayrılmaz tərkib hissəsi olan Qəbələ rayonunun meşə örtüyü füsunkarlığı, əl-əlvanlığına və heyrətamizliyinə görə diqqəti cəlb edir. Gur yağan leysan yağışlar, isti hava şəraiti bu ərazidə həmişəyaşıl sıx meşə örtüyünün inkişafına səbəbdir. Hər bir Azərbaycan rayonunun özünəməxsusluğu diqqəti cəlb edir. Rayonlarda tarixi mədəniyyət abidələri, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, müasir tələblərə cavab verən mehmanxanaların və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafında müstəsnadır.

## "QARABAĞ BÖLGƏSİNİN ÇOX ZƏNGİN TURİZM POTENSİALI VARDIR"

Bu gün fərəhləndirici haldır ki, ölkəmizin turizm bölgələrindən söz açarkən, zəngin təbiətli Qarabağımızın hər daşı, hər abidəsi göz önündə canlanır. Belə gözəlliyə malik Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənəcək. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq".

Bəşər mədəniyyətinə qarşı vəhşilik törədən ermənilər bu ərazilərimizi talan etmiş, abidələrimizi darmadağın edərək viran qoymuşdular. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi və s. Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılıb. Heç şübhəsiz ki, bu məkanların hər biri turistlərin marağına səbəb ola biləcək tarixi yerlərdir.

Öz təbii sərvətləri ilə seçilən torpaqlarımız səfalı və müalicəvi əhəmiyyətə malik olmaları baxımından da diqqət çəkir. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Ermənilər həmin çinarları doğrayaraq, xarici ölkələrə satıblar. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində, - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək, - Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Cənab Prezidentin bildirdiyi kimi, "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur". Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir, beynəlxalq hava limanları tikilir ki, bütün bunlar Qarabağın tezliklə turistlərin seçdiyi ən gözəl məkanlardan olacağına əminlik yaradır.

***Nəzakət ƏLƏDDDİNQIZI***

# Sahibsiz heyvanlara qayğı, yoxsa propoqanda?



**Heyvanlar hiss və hərəkət qabiliyyətinə malik canlılardır. Heyvanların sahiblərinə sədaqəti onlara sevginin formalaşmasına kömək edirdi. Bir çox kitablarda, filmlərdə sahibləri üçün canlarını verən heyvanların hekayələrini oxuyub izləyirik. Heyvanları sevən insanlar heyvan xəstəliklərini müalicə etmək üçün çalışıblar. Bu gün sivil ölkələrdə heyvan xəstəxanaları yaradılıb. Baytarlar heyvan xəstəliklərini müəyyənləşdirir və müalicə edirlər. Heyvan xəstəliklərinə qarşı tədbirlər görülür. Heyvanları xəstəliklərdən qorumaq üçün peyvəndlər edilir.**

Heyvanları sevənlər insanları daha səmimi sevirlər. Heyvan dostları xoşbəxtliyi sevgidə axtarırlar. Heyvanları xilas edək. Heyvanlara işgəncə verməyək. Heyvanları sevək. Gəlin onlara kömək edək.

Hər il dünyanı paylaşdığımız dostlarımızın və heyvanlarımızın günü kimi qeyd edirik. Heyvanları qorumaq və bu mövzuda məlumatlılığı artırmaq üçün 1931-ci ildə Florensiyada qəbul edilən Heyvanları Mühafizə Günü ilə heyvanlara daha yaxşı rəftarın tərəfdarı olan və heyvanların rifahı üçün mübarizə aparan insanlar bir araya gəlir.

Heyvan hüquqlarını qorumaq istəyən insanlar 1822-ci ildə İngiltərədə bir araya gələrək ilk heyvanları müdafiə birliyini qurdular. Türkiyədə Heyvanları Mühafizə Cəmiyyəti 1908-ci ildə yaradılıb. Eyni məqsədlə assosiasiyalar birləşərək Hollandiyanın paytaxtı Haaqada Ümumdünya Heyvanların Mühafizəsi Federasiyasını yaratdılar. Bu günün məqsədi kainatda insanlardan başqa canlıların olduğunu başa düşmək, onların yaşayış yerlərinə qarışmamaq, yaşamaq hüququna hörmət etmək, ev heyvanlarına qarşı mərhəmətli olmaq, onları qorumaq və nəzarət etmək, onları yaxşı şəraitdə bəsləmək, həssas davranmaq barədə maarifləndirməkdir.

## HEYVAN HÜQUQLARI NƏDİR?

15 oktyabr 1978-ci il tarixində Parisdə YUNESKO-da elan edilmiş Heyvan Hüquqlarının Ümumdünya Bəyannaməsinə əsasən heyvan hüquqları ümumilikdə aşağıdakılardır:

**1.** Bütün heyvanlar bərabər hüquqlarla doğulurlar və eyni yaşamaq hüququna malikdirlər.

**2.** Bütün heyvanların hörmət olunmaq hüququ var. İnsan başqa heyvanları məhv edə bilməz. O, bu hüququ pozaraq onlardan istifadə edə bilməz. Bütün heyvanların insani qayğı və müdafiə hüququ var.

**3.** Heç bir heyvana pis rəftar və qəddarlıq sərgilənə bilməz. Əgər heyvanı öldürmək məcburi şəkildə lazımdırsa, bu, ağrı vermədən və qorxutmadan dərhal edilməlidir.

**4.** Bütün vəhşi heyvanların quruda, havada və suda öz şəxsi təbii mühitində yaşamaq və çoxalmaq hüququ vardır.

**5.** İnsanların özləri ilə apardıqları bütün heyvanlar təbii ömürlərinə uyğun olduqları müddətcə yaşamaq hüququna malikdirlər. Heyvanı tərk etmək qəddarlıq və alçaqdır.

**6.** Bütün işləyən heyvanların məhdud iş vaxtı və intensivliyi, güclərini artırmaq üçün qidalanma və istirahət hüququ vardır.

**7.** Heyvanlara fiziki və ya psixoloji ağrı verən təcrübələr heyvanların hüquqlarına ziddir. İstər tibbi, istər elmi, istər kommersiya, istərsə də başqa cür təcrübələr üçün belədir.

**8.** Heyvan yemək üçün yetişdirilsə belə, ona baxılmalı, saxlanmalı, daşınmalı, ölümü iztirabsız və qorxusuz olmalıdır.

**9.** Heyvanlardan insanların əylənməsi üçün istifadə edilə bilməz, heyvanlara baxmaq və heyvanlardan istifadə edilən şoular heyvan ləyaqətinə ziddir.

**10.** Məcburiyyət olmadan heyvanın öldürülməsi həyata qarşı cinayətdir.

**11.** Çoxlu sayda vəhşi heyvanın öldürülməsi mənasına gələn hər hansı əməl soyqırımdır, yəni cinayətdir.

**12.** Heyvanların ölümünə də hörmət edilməlidir. Heyvanların öldürüldüyü zorakılıq səhnələri kino və televiziyada qadağan edilməlidir.

**13.** Heyvanların mühafizəsi və müdafiə qaydaları hökumət səviyyəsində təmsil olunmalıdır. Heyvanların hüquqları insan hüquqları kimi qanunla qorunmalıdır.

**Sahibsiz heyvanlar haqqında 12 yanlış düşüncə:**

**1.** Küçədəki pişiklər və itlər çirklidir, sizin üçün ölümcül ola biləcək xəstəliklər daşıyırlar

Mikroblardan danışmağa gəlincə, hər gün toxunduğumuz televizor pultu da mikrobludur. Əgər steril və təcrid olunmuş bir laboratoriyada yaşamırsınızsa, mikroblardan qaçınmaq demək olar ki, mümkün deyil. Hər gün əlimizdə tutduğumuz pullar, avtobusda tutduğumuz asılqan, sizin metroda tutduğunuz eskalator dəstəyi və s. bu kimi bir çox şeylər sahibsiz heyvandan 10 qat daha çirklidir. Ona görə də onları sevməkdən, toxunmaqdan çəkinmək mənasızdır.

**2.** Sahibsiz itlər insanlara hücum edir

Sahibsiz itlər insanlar tərəfindən özlərinə hücum etmədikcə onlara hücum etmirlər. Xalqın zülmü nəticəsində artıq çoxları qorxaqlaşıb. Əgər insan itlə yaxşı rəftar edərsə, it o insanın ən yaxın dostu olur. Sahibsiz it yalnız ona pis davranan və qorxanlara cavab verir.

**3.** Sahibsiz heyvanlar onsuz da yemək tapırlar

Varsa tapacaqlar, olmasa tapmayacaqlar. Onlar bağlı, möhkəm bağlanmış zibil torbalarını aça bilmirlər. İnsanlar bir şəkildə yemək buraxmasalar, ac qalacaqlar, zəifləyib xəstələnəcəklər. İnsanlar kimi onlar da canlıdır.

**4.** Sahibsiz itlər gördükləri hər maşına hücum edirlər

Burada başa düşmək lazımdır ki, əsas məsələ itlərin avtomobillərə hücum etməməsi deyil, fırlanan təkərlərin onlarda instinktiv reaksiya yaratmasıdır. Əgər siz nə vaxtsa ev iti görmüsünüzsə, onun pəncərədən keçən avtomobilə eyni reaksiya verəcəyini görə bilərsiniz. Burada önəmli olan başa düşməkdir ki, əgər siz velosiped və ya motosikletdəsinizsə və sürərkən onları təpikləsəniz, ilk daşı siz atmış olacaqsınız.

**5.** Qaşınan sahibsiz itlərdə qaşınma, birə və xəstəlik olur

Hər qaşınan itdə qaşınma olmur. Necə ki, hər qaşınan adamda qaşınma olur. Heyvanda qaşınma bədəndə həddindən artıq tüksüzlük, halsızlıq və qızarmış yaralar şəklində özünü göstərir. Bəzən saçları tökülən itləri görsəniz, narahat olmayın. Sahibsiz heyvanlar mövsüm dəyişiklikləri zamanı zaman-zaman tüklərini tökərək lələklərin yenilənmə dövrü yaşayırlar. Bu, onların hər il yaşadığı təbii haldır.

**6.** Küçədə pişik və itlər bir-birinə düşmənçilik edir, asayişi pozurlar

Hamısı rahat olsa, qarınları tox olsa, bir-birinə qarışmazlar. Yaxşı şəraitdə birlikdə yaşaya bilərlər. Ancaq təbii yaşayış yerlərinə yaxın ərazilərdə daim sürünənlər və çiy ət yeməyə məcbur edilən itlər aqressiv olurlar. Təkamül zamanı ov instinktləri artdıqca sürünənlər kimi pişiklərə hücum edə bilərlər.

**7.** Sahibsiz heyvanlar sığınacaqlarda təhlükəsizdirlər

Küçə heyvanının yeri küçədir. Xoşbəxt və rahat olduğu bölgədəki insanların yanında olmağı üstün tutur, hətta onunla yaxşı rəftar olunacağı ümidi ilə belə. Bu, övladlığa götürülərsə, pişik üçün ev və ya it üçün bir bağ ola bilər. Amma sığınacaq həbsxanadır. Ölkəmizdə çox az sayda sığınacaqda onların rahat yaşaması üçün kriteriyalar var. Ümumiyyətlə, bəzi sığınacaqların dar ərazilərində baxımsız, ac və xəstəlikdən əziyyət çəkərək həyatlarını keçirirlər.

**8.** Sahibsiz heyvanları quru çörəklə qidalandırmaq olar

Küçə heyvanları quru çörək yemirlər. Əgər çörəyi yemək qalıqları ilə su və ya quru yeməklə hazırlamaqla versəniz, bu, onlar üçün qane ola bilər. Çörək maya tərkibli qida olduğundan, ilk 2 il ərzində zərər görməsə də, 2 il və ya daha çox çörəklə qidalanan itlərdə dəri problemləri və allergiya riski çox yüksək ola bilər. Bu səbəbdən, ət əlavələri, papara və ya quru yeməklərin qalıqları ən uyğundur.

**9.** Sahibsiz heyvanlar faydasızdır

İnsan istənilən heyvana kifayət qədər bilik və məhəbbətlə yanaşıldıqda təlim keçə bilər. Xüsusilə, itlər yüksək qoruyucu instinktə malikdirlər və pişiklərlə birlikdə siçan, həşərat, sürünən və zərərvericilərin evlərə daxil olmasının qarşısını alırlar. Sahibsiz itlər onlara öyrədildikdə hətta tənha yerdə tualet ehtiyaclarını görə bilirlər.

**10.** Sahibsiz heyvanlar ətrafda baş verənlərə laqeyiddirlər

Onlar belə hiss edirlər. Əgər çox bədbəxtdirlərsə, depressiyaya düşürlər, sakitləşirlər və hətta intihar edirlər. Sadəcə insanlar kimi göz yaşı tökə bilmirlər. İtlər bədbəxtliklərini, acizliyini üzləri ilə, pişiklər səsləri ilə göstərirlər. Xoşbəxt olduqları zaman itlər quyruqlarını bulayacaq, pişiklər isə əsnəkləri ilə sizə göstərəcəklər. Onların qohumluq əlaqələri var, nəsillərini və ya valideynlərini fərqləndirir və sevirlər.

**11.** Sahibsiz heyvanlar murdarlıq səpələyirlər

Küçə heyvanları insanlar kimi çəngəllə yemirlər. Qapalı torbaları pəncələri ilə açması mümkün deyil.

SİA məsələ ilə bağlı araşdırma apararaq heyvansevərlərin və mütəxəssislərin fikirlərini öyrənib.

"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova: "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 274-cü maddəsinə əsasən heyvanlara rəhmsiz davranaraq onları şikəst və ya tələf etməyə görə şəxslər 500 manat məbləğində cərimə edilir. 31 may 2007-ci il tarixli "Ev Heyvanlarının Mühafizəsi haqqında" Avropa Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu ilə "Ev Heyvanlarının Mühafizəsi haqqında" 1987-ci il noyabrın 13-də Strasburq şəhərində imzalanmış Avropa Konvensiyası Azərbaycan Respublikasının 10-a dair şərti ilə təsdiq edilmişdir. Həmin konvensiyanın 3.1 maddəsinə əsasən heç bir kəs ev heyvanına lüzumsuz, ağrı və zərər verə bilməz.

"Heyvanlar Aləmi haqqında" Azərbaycan Respublikasının qanununun 53-cü maddəsinə əsasən heyvanlarla rəhmsiz davranaraq onları şikəst və yaxud tələf etmək məsuliyyətə səbəb olur. Amma ətrafımıza baxanda görürük ki, heyvanların hüquqları kifayət edəcək dərəcədə qorunmur. Biz bunu sosial şəbəkələrdə də görürük.

Heyvanlara qarşı amansız davranan insanlar heç düzgün hərəkət etmirlər. Düşünürəm ki, 500 manat olan cərimənin miqdarı artırılsa daha yaxşı olar. Bununla bağlı olan qanun daha da sərtləşdirilməlidir. Aidiyyatı qurumlar məsələyə nəzarət etməlidirlər. Düşünürəm ki, məktəblərdə də bununla bağlı layihələr, maarifləndirici işlər görülməlidir. Saytlar və televiziya kanalları da buna dəstək verməlidir. Biz də öz növbəmizdə heyvan sevgisini övladlarımıza da aşılamalıyıq".

Məsələ ilə bağlı şəhər sakini, tez-tez heyvanlar haqqında olan aksiyalarda, heyvan sığınacaqlarında iştirak edən Əfsanə Nərimanovanın fikirlərini də öyrəndik: "Elə düşünürəm ki, necə ailəmizi sevib qoruyuruqsa heyvanlara da bir o qədər sevgi ilə yanaşmalıyıq. Onlar da bir canlıdır. Biz isti havalarda susayanda su alıb içə bilirik, amma onlar bir qurtum su üçün küçə-küçə gəzirlər, soyuq havalarda isinmək üçün evlərimizə tələsirik amma onlar isinmək üçün yer tapa bilmirlər hətta soyuqdan maşınların kapotlarına belə girirlər. Bu da onlar üçün böyük təhlükədir. Bizim "whatsapp", "İnstagram" qrupumuz var ki, adı "Küçələrin səsi"dir və burada yaralı heyvanlara yardım, sahiblənidirilmə və s. paylaşımlar olunur qrupda. Qrupun üzvləri hər həftə müxtəlif yerlərdə yemləmə aksiyası keçirir. Bizə qoşulmaq və ya yardım etmək istəyən şəxslərə qrupumuz hər zaman açıqdı. Əlimizdən gələn qədər heyvanları sevək, qoruyaq və ən əsası incitməyək".

Tez-tez heyvanlar haqqında olan aksiyalarda, heyvan sığınacaqlarında iştirak edən Sona Şıxəmirli: "Mən evdə həm quş, həm də pişik saxlamışam. Ümumiyyətlə evdə heyvan saxlamaq çox çətin və məsuliyyətli bir işdir. Çünki onun sadəcə yeməyini vermək heyvana baxmaq demək deyil. Onun uşaq kimi qayğısına qalmaq, lazım olduqda baytara aparmaq lazımdır.

Quşa baxmaq daha çətindir. Mən də quş saxlayırdım lakin öldü. Mən ümumiyyətlə heyvanların alınıb satılmasına qarşıyam. Sahiblənmək daha yaxşıdır. Mən pişiyimi küçədən sahiblənmişdim və o çox xəstə idi. Biz onu sahiblənərək sağaltdıq. Biz özümüzü pis hiss edəndə ev heyvanımız bizə sevgi aşılayır. O, bunu hiss edir".

Heyvansevərlərdən biri də Şölə Bağırovadır: "Dünya üzrə ümumi bilgi vermək absurt səslənər. Çünki hər ölkədə heyvanlara sevgi və qayğı çox fərqlidir. Bəzi ölkələrdə insanlar heyvanları öz övladları kimi sevərkən, bəzi ölkələrdə isə heyvanlar insanlar tərəfindən ağır şiddətlərə məruz qalır. Azərbaycanda isə heyvanlara qarşı sevgi təəsüflər olsun ki, düşünüləndən də azdır. Digər ölkələrdə insanlar heyvan sevgisini uşaqlıqdan hiss edir və vaideynləri tərəfindən öyrədilərkən bizim ölkədə "itə, pişiyə toxunma murdardır" deyilir. Bu düşüncələr var olduqca təəssüf ki, heyvanlara qarşı edilən zülmlər də azalmayacaq. Ümid edirəm bir gün hər kəs özünə və övladına heyvan sevgisini, mərhəməti öyrədər və ölkəmizdə heyvanlar rahat və tox yaşayar".

*Ayşən Vəli*



# Soçi görüşündə təxribatçı ermənilərə tutarlı şillə

Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin Soçidə keçiriləcən üçtərəfli görüşünün nəticələrinə dair imzalanan Bəyanatın müddəaları hər şeydən əvvəl, Azərbaycanın gözləntilərinin doğrulduğunu təsdiqləyir. Görüş zamanı Rusiya lideri tərəfindən səslənən fikirlər Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi deməkdir ki, buna Nikol Paşinyanla yanaşı, bütün Ermənistan ictimaiyyəti də əmin oldu. Soçi görüşünün ardınca Ermənistan cəmiyyətinin öz rəhbərlərinin növbəti dəfə diplomatik məğlubiyyətinə görə qıcıqlanması, yenə də orada bəzi qüvvələrin xaos yaratması heç də təsadüfi deyil və işğalçı ölkənin diplomatik müstəvidə də məğlubiyyətini həzm edə bilməməsi deməkdir. Sözsüz ki, Soçidə səsləndirilən fikirlər, bu fikirlərdən qıcıqlanan Ermənistana, ermənipərəst qüvvələrə, ermənilərin bütün xarici havadarlarına çox ciddi mesaj oldu ki, qarşı tərəf üçün bunu etiraf etmək çox ağrılı-acılıdır.

Ermənistanda bəzi qüvvələri ən çox qıcıqlandıran Rusiya Prezidentinin əsasən Azərbaycan Prezidenti ilə görüşdə toxunduğu məqamlara və mövqeyinə istinadə etməsidir. Çünki bütün bunlar ondan xəbər verir ki, rəsmi Moskva postmünaqişə dövründə məhz Bakının siyasi xəttini dəstəkləyir və bunu bəyan etməkdən də çəkinmir. Rusiya liderinin hər iki dövlətin bir-birilərinin ərazi bütövlüyünü, suverenliyini tanımalı olması zərurəti barədə vurğulaması bir çox məqamlardan xəbər verir. "Gecikmədən sərhədləri müəyyənləşdirmək, yekun sülh müqaviləsi bağlamaq lazımdır", deməklə, Putin əvvələ, bir növ Azərbaycanın konstruktiv mövqeyinə müsbət münasibət bəslədiyini, hətta Azərbaycanın tərəfində olduğunu erməni baş nazirə çatdırdı. Digər tərəfdən də Azərbaycanın konstruktiv təkliflərini əngəlləməyə çalışan erməni tərəfinə və şəxsən Ermənistanın baş nazirinə xəbərdarlıq etdi ki, öz cızığından çıxmasın və heç də bu kontekstdə Rusiyadan dəstək gözləməsin.

Nəzərə almaq lazımdır ki, görüşün nəticələrinə dair mətbuat konfransında Rusiya prezidenti Vladimir Putin dəfələrlə "dəhliz" ifadəsini işlədib və bu heç də əbəs yerə deyil. Dəhliz ifadəsinin səsləndirməsi Zəngəzur dəhlizinin açılmasının Moskva tərəfindən dəstəkləndiyini təsdiqləyir. Təsdiq edir ki, Rusiya Azərbaycanın Ermənistandan keçməklə Naxçıvana, oradan da Türkiyəyə çıxış almasını nəzərdə tutan bu layihəni dəstəkləyir. Bu həm də Ermənistan tərəfə bir ehyam da hesab oluna bilər və artıq ermənilər bilməlidirlər ki, güvəndikləri Rusiya belə Zəngəzur dəhlizi məsələsində onların mövqeyini müdafiə etməyəcək, əksinə, Azərbaycanın yanındadır və ölkəmizin mövqeyindən çıxış edir.

Müşahidələr təsdiq edir ki, erməni baş naziri Paşinyanın mövqeyinə ölkəsindəki müxalif qüvvələrin fikirləri ciddi təsir edir. Daha dəqiq desək, müxalifət qüvvələrindən qorxan Nikol onların hədəfinə tuş gəlməmək üçün hər dəfə onların arzuladıqları kimi sərsəm fikirlər səsləndirmək məcburiyyətində qalır və bunu da edir. Əlbəttə, nəticəsi təkcə Paşinyanın özü üçün deyil, ümumilikdə erməni cəmiyyəti üçün bu çox baha başa gəlir, amma reallıq budur. Həmçinin daha bir reallıq ondan ibarətdir ki, Rusiya Ermənistanda müxlifətin belə ağzını bağlaya, səsini kəsə, susdura bilir. Bunun üçün Rusiyanın kifayət qədər rıçaqları var. Yəni, onsuz da Rusiyanın əlinə baxan bir ölkənin, müstəqil siyasət yürüdə, öz ayaqları üzərində dayana bilməyən, daim Rusiyadan asılı olan bir ölkənin ipinin məhz böyük qardaş adlandırdıqları rusların əlində olduğu kimin üçünsə sirr deyil və bunun da fonunda ermənilərin hansı mövqedə olmalarından asılı olmayaraq cızıqlarından çıxma etimalları sıfıra yaxınlaşır. Məhz belə olan halda gün kimi aydın olur ki, Ruisyanın da marağında olan bir məsələ ətrafında erməni tərəfin siyasi spekulyasiyaları mümkünsüzdür, hətta olsa belə mənasızdır. Daha dəqiq desək, Zəngəzurla bağlı məsələ Rusiyanın marağında olduğu halda, Ermənistanın nə hakimiyyəti, nə də müxalifəti bunu müzakirə mövzusu belə etmək iqtidarında ola bilməz. Buna cürətləri belə çatmaz. Bir sözlə, Soçidə avtomobil və dəmir yollarının açılmasını nəzərdə tutan layihələrə başlanması ilə bağlı qərarların qəbul olunması sıradan bir hadisə hesab oluna bilməz və birmənalı olaraq, revanş arzusunda olanlara, revanşistlərə tutarlı sillə sayılır.





Soçi görüşü, görüşə dair yekun Bəyanat Azərbaycanın haqlı mövqeyinə dəstək olmaqla yanaşı, həm də revanşist ermənilərin təxribatçı mövqelərinə tutarlı zərbə oldu, hansıki bu, özünü bir neçə istiqamətdə biruzə verdi. Əvvəla, Bəyanatda Qarabağ ifadəsi yer almadı. Bu da təsadüfi deyildi və bunu ermənilər çox yaxşı başa düşürlər. Başa düşürlər ki, hansısa spekulyasiyaları üçün onlara şans belə Rusiya tərəfindən, onların arxa hesab etdikləri tərəfdən verilmədi. Bu onlar üçün çox ağır zərbə oldu və çətin ki, bundan sonra nəyə isə cürət edələr. Digər tərəfdən, əsir və ya girovlar məsələsinə hətta toxunulmadı, hansı ki, bunu erməni tərəfi, onların xarici havadarları daim sövdələşmə predmetinə çevirməyə çalışıblar. Yəni, bundan sonra hansısa bir əsir, hərbi əsir mövzusu da təxribatçı ermənilərin əlində bəhanı ola bilməz və bunun üçün də şans verilmədi. Reallıq bundan ibarətdir ki, Soçi görüşündə təxribatçı ermənilərə tutarlı sillə dəydi.

Doğrudur, bundan sonra hadisələrin öz istiqamətini dəyişəcəyi, yəni ermənilərin məsələlərə yanaşmalarının Azərbaycan tərəfinin diqtə etdiyi kimi olacağı zərrə qədər şübhə doğura bilməz, amma təxribatçıların hələ daha nəyə, yaxud nələrə əl atacaqları da bəlli deyil. Hər bir halda ermənilər bilməlidirlər ki, belə tutarlı sillə ilə bir də qarşılaşmamaları üçün özlərini tələb olunan formada aparmalıdırlar. Əks halda, mütəmadi olaraq bunun təkrarı ilə qarşılaşmalı olacaqlar. Hərb meydanında dəmir yumruq, diplomatik cəbhədə sillə ilə qarşılaşmamaq üçün Ermənistan təxribatçı hərəkətlərinə son qoymalı, danışıqlara əməl etməli, özlərini daha çətin duruma sürükləməməlidirlər. Gümün edirik ki, xam xəyallara qapılanların elə həmin o xəyallardan ayılmaları, gerçəklikləri dərk etmələri üçün belə bir sillə yerinə düşdü və bundan sonra yadda qalan olar, ermənilər bunu unutmazlar.

Soçi görüşü, görüşə dair yekun Bəyanat Azərbaycan Prezidentinin, ölkə başçısı cənab İlham Əliyevin növbəti, mükəmməl diplomatik qələbəsi olaraq dəyərləndirilir. Bu qələbə Ali Baş Komandanın hərb meydanında imza atdığı qələbənin ardınca əldə etdiyi növbəti diplomatik qələbə kimi bütün dünyada xarakterizə olunur, çünki, Azərbaycan Prezidentinin mövqeyi bu dəfə də dəstəkləndi və qarşı tərəfə diqtə edildi. Sadalananlar özü-özlüyündə ölkə başçısının həqiqətən də liderlik keyfiyyətlərini təsdiq edir. Təsdiq edir ki, həqiqətən də cənab Prezident İlham Əliyev məqsədyönlü siyasət yürüdərək, iradə nümayiş etdirərək, milli maraqlardan çıxış edərək mükəmməl qələbə qazanıb, bu qələbələr diplomatik müstəvidə də davam edir və ölkə rəhbərimiz hər zaman da düşmən üzərində qələbə qazanmaq əzmindədir. Ermənilər bu həqiqətin, bu reallığın bir daha şahidi oldular, əyani şəkildə bunu gördülər ki, bu reallıqları görmək özü də onlar üçün növbəti, həm də kifayət qədər tutarlı bir sillədir.

**İnam Hacıyev**

# “Xalq cəbhəsi” qəzetinin 20 illiyinə həsr olunmuş toplantı keçirilib






Dünən Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ”Xalq cəbhəsi” qəzetinin fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş toplantı keçirilib. SİA xəbər verir ki, tədbiri giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov bildirib ki, ”Xalq cəbhəsi” qəzeti 20 il öncə partiya təmayüllü mətbuat orqanı statusunda yaransa da, özünü milli qəzet kimi təsdiqləyib. Nəşrin səhifələrində milli məfkurə saflığı, türkçülük ideyları, azərbaycançılıq vəhdətdə götürülüb. Ən əsası isə qəzet Azərbaycanın bütövlüyü ideyasına məxsusi yanaşma və çalarlar ortaya qoymağı bacarıb. Cənub mövzusu onun səhifələrində daha dolğun və sistematik şəkildə oxuculara çatdırılıb. Qəzet mövcud müstəvidəki əks-meyllərə qarşı ideoloji mübarizə əzmini də nümayiş etdirməklə püxtələşib. ”Bu günün ”Xalq cəbhəsi” qəzeti peşəkar komandaya malik ümummilli məsələləri, dövlət maraqlarını, xalqın və millətin mənafelərini üstün tutan yaradıcılıq mərkəzidir. Belə bir yüksək mövqeyə sahiblik illərin zəhmətinin bəhrəsidir. 15 ildir qəzetə istedadlı həmkarımız, şair, publisist və siyasi xadim, politoloq Elçin Mirzəbəyli rəhbərlik edir. Onun başçılığı ilə qəzet müasir dövrün tələblərinə xas şəkildə fəaliyyətdədir. Nəşr artıq media qrupu formatına uğurlu keçidə imza atıb. Bunlar isə bütövlükdə Azərbaycanın mətbuat ənənələrinə verilən dəyərin, yazıb-yaratmaq, cəmiyyət üçün faydalı olmaq arzusunun təzahürüdür. Və bütün bunlara görə Azərbaycan Mətbuat Şurası ”Xalq cəbhəsi” qəzetini fəxri diploma layiq görüb”, - deyən Ə.Amaşov diplomu qəzetin baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Elçin Mirzəbəyliyə təqdim edib.

MŞ İdarə Heyətinin üzvü, ”Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu bildirib ki, Azərbaycanda müstəqillik dövrünün mətbuatı xalq hərəkatına bağlı, özünün təməlini bu hərəkatdan götürən mətbuatdır. 20 yaşını qeyd edən ”Xalq cəbhəsi” qəzetinin də qayəsində xalq hərəkatının elan etdiyi prinsip və dəyərlərə sayğı və ehtiram dayanır. Qəzet media məkanına siyasi partiyaya yaxın kütləvi informasiya vasitəsi qismində daxil olsa da, özünün peşəkar dəst-xətti ilə ümumi dəyərlərə xidmət göstərib. R.Arifoğlu media sahəsindəki q l o - bal transformasiya dövründə ”Xalq cəbhəsi”nə daha uzun yayım ömrü arzulayıb. O, fenomenal xarakterlərə malik baş redaktor E.Mirzəbəylinin sayəsində başlanılmış yolun bundan sonra da uğurla davam etdiriləcəyinə inandığını dilə gətirib.

MŞ İdarə Heyətinin üzvü, ”Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev siyasi təbəqələşmənin cəmiyyətə hakim kəsildiyi bir vaxtda meydana çıxmış ”Xalq cəbhəsi” qəzetinin firqə maraqları ilə yanaşı, ümumxalq və dövlət maraqlarını da müdafiə etdiyini xatırladıb. O deyib ki, nəşrdəki işə peşəkar yanaşma tərzi jurnalistikanın prinsiplərini hər zaman ön planda saxlayıb. A.Quliyev onu da bildirib ki, baş redaktor E.Mirzəbəyli medianın müasir çağırışlarına adekvat cavab verilməsi ehtiyacını inamla doğruldan rəhbərdir və ”Xalq cəbhəsi”nin uğurlarında böyük pay sahibidir.

”Xalq cəbhəsi” qəzetinin yarandığı dövrün xüsusiyyətlərinə diqqət yetirən MŞ İdarə Heyətinin üzvü, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı vurğulayıb ki, 20 illiyini qeyd edən nəşr partiya prinsipləri ilə peşəkar media dəyərlərini vəhdətdə tutmağın örnək nümunəsidir. O, baş redaktor E.Mirzəbəylinin malik olduğu yüksək keyfiyyətlərin qəzetin yaradıcılıq kursuna da təsir göstərdiyini vurğulayaraq ”Xalq cəbhəsi”nə yeni-yeni uğurlar arzulayıb.

MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli bildirib ki, mediada texnoloji yeniliklərin tətbiqinin geniş vüsət aldığı, ənənəvi medianın onlayn mediaya transformasiyasının labüd proses kimi diqqət çəkdiyi indiki dövrdə dəyişməyən bir meyar var ki, o da peşəkarlıqdır. ”Xalq cəbhəsi” ötən müddətdə məhz bu meyara sadiqlik nümayiş etdirib.

”Olaylar” qəzetinin və eyni adlı informasiya agentliyinin rəhbəri, yazıçı-publisist Yunus Oğuz partiya təmayüllü nəşrdə yaradıcılıq sərbəstliyinin mövcudluğunu böyük mənəvi divident kimi xarakterizə edərək ”Xalq cəbhəsi”nin bu baxımdan fərqləndiyini deyib. O, belə yanaşmanın Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Hənquliyevin şəxsi keyfiyyətlərindən, jurnalist işinə verdiyi dəyərdən irəli gəldiyini vurğulayıb. Y.Oğuz da çıxışında nəşrin yarandığı dövrü yada salıb, onun formalaşmasında qəzetin ilk baş redaktoru Vüsalə Mahirqızının əməyinin olduğunu qeyd edib. Y.Oğuz həmçinin bildirib ki, 15 ildir ”Xalq cəbhəsi”nə rəhbərlik edən E.Mirzəbəylinin prinsipial yanaşma tərzi qəzetin faəliyyət spesifikası üçün də düşündürücü, cəmiyyətin maraq və mənafelərindən irəli gələn xarakterik mövzular müəyyənləşdirməkdədir.

”Türküstan” qəzetinin baş redaktoru Aqil Camal ”Xalq cəbhəsi”ni mənsub olduğu siyasi qüvvəyə üstünlük qazandıran qəzet kimi dəyərləndirib. O, nəşrin milli-ideloji səpkidəki fəaliyyətindən söz açaraq bildirib ki, 20 yaşını qeyd edən mətbuat orqanı eyni zamanda məktəb funksiyasını daşıyır. Onun şinelindən hazırda ölkənin ictimai həyatının müxtəlif sahələrində çalışan peşəkarlar çıxıblar.

”Elçi” qəzetinin baş redaktoru Əli Həziquliyev bildirib ki, ”Xalq cəbhəsi” cəmiyyətin qəzetinə çevrilməyi bacaran KİV-dir. Baş redaktor ənənəvi medianın sıradan çıxması ilə bağlı tendensiyanın gücləndiyi hazırkı şəraitdə ”Xalq cəbhəsi”nin məhz qəzet kimi də varlığını davam etdirməsini arzulayıb.

Toplantıda çıxış edənlərdən ”Novaya vremya” qəzetinin baş redaktoru Şakir Ağayev, ”Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, ”İki sahil” qəzetinin baş redaktor müavini İsmayıl Hacıyev, ”Lent.az” saytının baş redaktoru Hafiz Heydərov, MŞ-nin icraçı katibi Şəmsəddin Əliyev, ”Xalq cəbhəsi” Media Qrupuna daxil olan ”Axctv.az” saytının baş redaktoru Niyaməddin Orduxanlı, ”Xalq cəbhəsi” qəzetinin redaktoru Arzu Şirinova, şair-publisist Xanəmir və başqaları 20 ildir fasiləsiz fəaliyyətdə olan qəzetin Azərbaycanda müstəqillik dövrü media ənənələrinin formalaşmasındakı, ictimai münasibətlərin tənzimlənməsindəki, siyasi dialoq mühitinin inkişafındakı rolundan söz açıblar. Onlar eyni zamanda vurğulayıblar ki, ”Xalq cəbhəsi” təməlində peşəkarlığın başlıca meyar kimi dayandığı, peşəsinə sadiq jurnalistlərin öz işlərinə sevgi ilə yanaşdıqları nəşrdir və bu cəhət onun populyarlığında ən vacib amildir.

Sonda çıxış edən baş redaktor E.Mirzəbəyli ”Xalq cəbhəsi” qəzetinə verilən dəyərdə onun hər bir əməkdaşının payının olduğunu bildirib. O deyib ki, çətin transformasiya dövründə nəşrin bütün imkanlardan istifadə edə bilir və bunun kökündə qəzetçilik ənənələrinə sadiqlik dayanır. ”Xalq cəbhəsi” isə ilk növbədə ənənələri qoruyan strukturdur. E.Mirzəbəyli çıxışında həmçinin toplantı iştirakçılarına öz adından və rəhbərlik etdiyi qəzetin kollektivi adından təşəkkürünü bildirib.

SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev başda olmaqla bizlər də ”Xalq Cəbhəsi” qəzetinin fəaliyyətə başlamasının 20 illik yubileyi münasibətilə həmkarlarımızı ürəkdən təbrik edir, onlara gələcək fəaliyyətlərində yeni-yeni yaradıcılıq uğurları arzu edirik.

***Aysel Məmmədova***

# Vətəndaşın sağlamlığı və həyatı hər şeydən önəmlidir!



“Məlumdur ki, dünyada artıq iki ildən çoxdur bəşəriyyət koronavirus pandemiyası ilə üzbəüzdür. Bu ötən müddət ərzində koronavirusun dəfələrlə bir neçə ştammının müxtəlif dalğaları olub. Azərbaycan da dünyanın bir parçası kimi koronavirus pandemiyası ilə ciddi mübarizə aparır. Koronavirus Azərbaycanda qeydiyyata alınmamışdan öncə möhtərəm Prezidentimizin tapşırığı ilə hökumət çox ciddi önləyici tədbirlər planı hazırladı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbrahimqızı deyib.




Onun sözlərinə görə, ötən müddət ərzində Azərbaycanda da təbii ki, koronavirusun müxtəlif vaxtlarda periodik olaraq dalğaları müşahidə olundu: ”Bütün bu müddət ərzində hökumətin koronavirusa qarşı apardığı tədbirlər planı beynəlxalq təşkilatlar tərəfindən çox yüksək dəyərləndirildi. Biz qürurla deyə bilərik ki, Azərbaycan hökuməti bir sıra ölkələrə, daha doğrusu 40-a yaxın ölkəyə müxtəlif maddi, müalicə, profilaktika məqsədilə böyük dəstək verdi. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar pul vəsaiti keçirdi və dövlət başçımızın iştirakı ilə müxtəlif beynəlxalq səviyyəli tədbirlər keçirildi. İstər Qoşulmama Hərəkatı çərçivəsində, istər Türk konseyi tərkibində müxtəlif tədbirlər oldu. Yəni, koronavirusa qarşı birgə səylərin səfərbər olması və birgə əməkdaşlıq mövzusunda çox yüksək səviyyəli tədbirlər keçirildi. Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatı adından Birləşmiş Millətlər Təşkilatına müraciəti ilə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının xüsusi sessiyası keçirildi, qətnamələr qəbul olundu. Həm Azərbaycan daxilində, həm beynəlxalq, həm regional müstəvidə koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan örnək gətirilən ölkələrdəndir və onu da deyim ki, Azərbaycan həqiqətən də koronavirusdan çox az itki və zərərlə çıxıb. Yəni, Azərbaycanda demək olar ki, həyat tam axarına düşüb”. Deputat sözlərinə belə davam edib: ”Çox cüzi məhdudiyyətlər var. Azərbaycan ən az itki və ən az zərər görən ölkələrdəndir. Bütün bunlara baxmayaraq bu ötən dövr ərzində Azərbaycan xalqı, Azərbaycan dövləti və Azərbaycan hökuməti çox ciddi problemlərlə üzləşdi”.

”Nazirlər Kabineti nəzdində qurulmuş Operativ Qərargah bir an da olsun koronavirus pandemiyasından diqqətini çəkmədi. Möhtərəm Prezidentimiz ilk gündən dedi ki, mənim üçün Azərbaycanın hər bir vətəndaşının sağlamlığı və həyatı hər şeydən önəmlidir. Bu prinsiplə də biz yola çıxdıq və artıq iki ili yola salmışıq”.

***Ayşən Vəli***

# "Mövqeyimiz bəllidir və Brüssel görüşündə onu bəyan edəcəyik"

**Soçi görüşü Azərbaycanın qarşıya qoyduğu tələblərə cavab verən bir görüş oldu. Bu sözləri SİA-ya verdiyi açıqlamasında deputat Elman Məmmədov deyib. Millət vəkili vurğulayıb ki, məqsədimiz nə idisə, Soçi görüşündə onların əksəriyyətinə nail olduq.**

"Sərhədlərin delimitasiyası, demarkasiyası məsələsidir, Zəngəzur dəhlizidir və müəyyən başqa məsələlərdir ki, bunlar Azərbaycanın istədiyi qaydada cavablandırıldı. Bu, Azərbaycanın təbii ki, böyük uğurudur və Soçi görüşünün ardınca, Aşqabadda keçirilən tədbirdə tədbir iştirakçılarının da bu məsələdə fikirlərinin müsbət olması bunun əyani sübutu oldu, yəni Aşqabad görüşünün özü də çox əhəmiyyətli görüş oldu. Brüssel görüşü öncəsi Soçi görüşü, belə deyək ki, Rusiya üçün daha böyük əhəmiyyət kəsb edirdi və nə üçün? Rusiya bu məsələdə və bölgədə özünün nüfuzunu qoruyub saxlamaq üçün, özünün vasitəçi kimi çəkisini, əhəmiyyətini saxlamaq üçün çox ədalətli və sərt mövqe ortaya qoymalı idi Soçidə və qoydu da. Bu elə Ermənistan rəhbərinin o fizionomiyasından, sir-sifətindən, duruşundan, baxşından, oturuşundan çox aydın sezilirdi və sonda imzalanan bəyannamə də bunu təsdiq elədi. Təbii ki, Azərbaycan bütün görüşlərə razılığını verir ki, görüş olsun və biz çalışırıq görüşdə öz tələblərimizi qoyaq. Qalib dövlət kimi də biz öz tələblərimizi qoyuruq və biz məramımızı aydınlaşdırırıq, bəyan edirik ki, biz bölgədə sülh olmasını istəyirik. Biz istəyirik ki, dayanıqlı sülh olsun, biz istəyirik ki, bu müharibə səhifəsi çevrilsin və artıq Ermənistan bu düşmənçilikdən, cürbəcür qərəzli iddialarından əl çəksin və qonşuluğa, tərəfdaşlığa, mehriban, sülh şəraitində yaşayışa başlanılsın. Ermənistandan da bunu gözləyirik. Cənab Prezidentimiz Soçi görüşündə bunu dedi. İndi Ermənistan belə deyək, bu Brüssel görüşünə çox can atırdı və razılıq verirdi, çünki Ermənistan ondan bir qədər əvvəl 9 noyabr görüşünü pozmuşdu və Qərbə istiqamətlənmişdi.

Yəqin ki, 26 noyabr tarixində Ermənistan dərsini aldı Rusiya tərəfindən və yeri göstərildi ki, onları tarix boyu qoruyan da, yaradan da, saxlayan da Rusiyadır, Qərbdən onlara kömək yoxdur və Nikol Paşinyana bunu başa salmaq istədilər və başa saldılar da.

İndi Brüssel görüşünü təşkil edənlər də yəqin ki, humanitar sahədə, sülh haqqında danışacaqlar. Bunu dəfələrlə səsləndiriblər ki, sülh olsun. Ancaq burada qərəzli mövqelər də ola bilər. Məsələn, nə, hansı mövqelər ola bilər? Yəni, bu Qərb dövlətləri başda olmaqla, o cümlədən Amerika Birləşmiş Ştatları da həmişə olduğu kimi, müharibədən sonrakı dövrdə də hansısa bir status məsələsini ortaya atırlar həmişə, müəyyən bir əsası olmayan fikirlər səsləndirirlər ki, guya bu problem hələ həllini tapmayıbdır. Ancaq bunlar cənab Prezidentimizin dediyi kimi, artıq tarixin arxivinə, zibil yeşiyinə atılıbdır.

Biz öz mövqeyimizi müdafiə edəcəyik, sözümüzü deyəcəyik. Sözümüzü hər dəfə demişik, mövqeyimiz ortadadır, bəllidir, yenə də Brüssel görüşündə onu bəyan edəcəyik. Orada da bizə nəyi isə sırımaq istəyə bilərlər. Onsuz da Qərbin peşəsidir Azərbaycan əleyhinə nələrsə, müəyyən qarayaxma kampaniyaları, müəyyən təzyiqlər, müəyyən məsələlər ortaya atır, ancaq Azərbaycanın mövqeyi məlumdur və dəyişməzdir. Ermənistan nələrsə gözləyir Brüssel görüşündən? Gözləyir ki, məsələn, qondarma statusla bağlı, sərhədlə bağlı bəlkə Azərbaycanı nəyə isə məcbur etmək istəsinlər. Ancaq bunlar da alınmayacaq, çünki, Soçi görüşü Brüssel görüşünü belə deyək, bir növ görüş xatirinə görüşə çevirdi. Ancaq yenə də qoy olsun və bu görüşdən də biz istəyirik ki, görüşün təşkilatçıları da ədalətli mövqedə olsunlar. Çünki, biz onların bu 30 ildə ədalətsizliyini də, saxtakarlığını da, riyakarlığını da görmüşük və nəticə çıxarmışıq. İndi Brüssel görüşündə nə olacaqdır, onu gələcək göstərər", deyə Elman Məmmədov bildirib.



*İnam Hacıyev*

ANALİTİK+AKTUAL

# Yeni türk dünyası:
## Azərbaycanın uğurlu platforması

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Zəfəri ölkəmizin iqtisadi imkanlarını da sürətlə artırmaqdadır. Bir sıra perspektivli layihələrin nəzərdə tutulması isə çoxsaylı planların qısa zamanda həyata keçirilməsinə zəmin yaradır. Xüsusilə, türkdilli ölkələrlə əməkdaşlıq platformaları sözügedən mənada özünü daha çox nümayiş etdirir. Bir müddət əvvəl İstanbulda Türk Dövlətləri Təşkilatının toplantısı, ardınca isə Türkmənistanda İƏT-in XV Zirvə Toplantısında Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla həmrəylik nümayiş etdirmələri də deyilənləri kifayət qədər təsdiq edir. O da əbəs deyil ki, Azərbaycan bu uğurlara asan yolla gəlməyib və hazırda əldə edilən uğurlar uzun illərin zəhmətinin bəhrəsidir. Bu baxımdan, regionda siyasi-iqtisadi yeniliklərin baş verməsi prosesində burada yer alan türkdilli ölkələrin Azərbaycana, eləcə də Azərbaycanın da onlar tərəfə inteqrasiyası, necə deyərlər, şərtə çevrilməkdədir.

> Ümumtürk platformasının yaradılması Mərkəzi Asiya Respublikaları ilə iqtisadi əlaqələrin gücləndirilməsi bu layihələrdən gələcək regional əhəmiyyət, dividend baxımından böyük perspektivlərə imza ata bilər

### Türk təşkilatlarında təmsil olunmaq Azərbaycan üçün hər zaman əhəmiyyət kəsb edib

Əslində, Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı maraqlarına üç aspektdən baxmaq olar. Birincisi, simvolik və ideoloji. Azərbaycan öz müstəqilliyini özünün türk kökləri və digər türkdilli ölkələrlə birləşmək, bir araya gəlmək, eyni amalları bölüşmək, milli özünüdərk dalğasında əldə edib. Ona görə də Bakı üçün TÜRKSOY təşkilatında olmaq, daha sonra isə Türk Şurasında təmsil edilmək hər zaman əhəmiyyət kəsb edib - özünə məxsus olan dövlətçilik ideologiyasını və legitimliyini, xarici dünyaya çıxış əldə etməsini və özünü təsdiq etməsi üçün.

İkinci aspekt isə siyasi-stratejidir. Azərbaycan həm coğrafi, həm də tarixi-mədəni planda Türkiyə və Mərkəzi Asiya ölkələrinin ortasında yerləşən məkandır və bu baxımdan, onun Türk dünyasında özünəməxsus yeri və rolu mövcuddur. Bu mövqe həm də onu göstərir ki, Azərbaycan müxtəlif nəqliyyat yolları vasitəsi ilə Avropa və Asiyanın kəsişmə nöqtəsindədir.

### Azərbaycanın Ermənistanın da üzv olduğu KTMT alyansında təmsil edilən türkdilli ölkələr tərəfindən birmənalı dəstək görməsi isə ayrıca məqamdır

Bu kimi məsələlərdə həm də daha bir məqam əhəmiyyət kəsb edir ki, son dövrlərə qədər Bakının qarşısında dayanan bir nömrəli məsələ Ermənistanla münaqişə vəziyyəti, həmçinin Qarabağ problemi idi. Azərbaycanın xarici siyasətinin tərkib hissələrindən biri də, məhz bu faktorlar olub. 1994-cü ildə əldə olunmuş atəşkəsdən sonra Bakı addım-addım öz statusunu və rolunu istifadə edərək müxtəlif konfiqurasiyalarda və ölkələrin birləşdikləri təşkilatlarda yer almağa başladı. O cümlədən, Bakı hazırda özünü həm müsəlman, həm də çağdaş, avropalı və türk, eyni zamanda, şərq və postsovet ölkəsi kimi təqdim edir. Bu kimi mühüm xüsusiyyətlər Azərbaycanı müxtəlif inteqrasiyalı birliklərdə özünü rahat siyasət aparmasına şərait yaradır. Azərbaycanın Ermənistanın da üzv olduğu KTMT alyansında təmsil edilən türkdilli ölkələr tərəfindən birmənalı dəstək görməsi isə ayrıca məqamdır. Bu məqam Bakı üçün çox əhəmiyyətlidir.




Qazaxıstan, Özbəkistan, Qırğızıstan və artıq Türkmənistan potensial iqtisadi sinregiya yaratmaq gücündədirlər

Üçüncüsü isə türk ölkələri Azərbaycan üçün iqtisadi baxımdan vacib və əhəmiyyətlidirlər. Bir tərəfdən Türkiyə söz yox ki, Azərbaycanın dəyişilməz və əbədi ticari, sərmayəçi partnyorlarındandır. Digər tərəfdən, məhz Mərkəzi Asiyanın türk dövlətləri - Qazaxıstan, Özbəkistan, Qırğızıstan və artıq Türkmənistan potensial iqtisadi sinregiya yaratmaq gücündədirlər ki, onlar öz potensialları ilə TRASEKA (TRACECA) və Çinin "Bir kəmər, bir yol" layihələrinin inkişafına, o cümlədən, Bakının milyardlarla dollarlar yatırdığı infrastruktur obyektlərinə - Ələt azad iqtisadi zonası və limanına, Bakı-Tbilisi-Qars dəmir yoluna qoşula bilərlər.

Beləliklə, ümumtürk platformasının, yaxud yeni türk dünyasının yaradılması Mərkəzi Asiya Respublikaları ilə iqtisadi əlaqələrin gücləndirilməsi bu layihələrdən gələcək regional əhəmiyyət, dividend baxımından böyük perspektivlərə imza ata bilər.

***Rövşən RƏSULOV***

# Erməni hərbi birləşmələri ərazidən çıxarılmalıdır

"Soçi görüşü say etibarı ilə üçüncü görüş idi, amma liderlər arasında h,əm telefon danışıqları, həm də bu kimi təmaslar, görüşlər olmuşdu". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə bildirib.

"Sadəcə konkret olaraq Qarabağda baş verən hadisələrlə bağlı 44 günlük müharibədən sonrakı dönəmdəki 10 noyabr bəyannaməsi ilə atəşkəs elan olundu və müharibə dayandı. Həmin bəyannamədə bir sıra müddəalar qeyd olundu və tərəflər üzərinə öhdəliklər götürdü. Bundan sonrakı dönəmdə Ermənistan faktiki olaraq məğlub olmuş tərəf kimi üzərinə bir sıra öhdəliklər götürmüş oldu. Ermənistan şərtlərə əməl etdi və Azərbaycanın üç rayonunu boşaltdı. Sadəcə olaraq Kəlbəcərlə bağlı 10 gün vaxt aldılar və 10 gün ərzində demək olar ki, dağılmayan yerləri də dağıtdılar, ekologiyaya ciddi zərərlər vurdular.

Təəssüflər olsun ki, bu hadisələr həmin ərazidə məsuliyyəti öz üzərinə götürmüş rus hərbiçilərinin gözü qarşısında baş verdi. Onlar müxtəlif obyektləri yandırdılar, meşələri, ağacları qırıb apardılar və sonradan da məlum olur ki, hətta getdikləri yerləri minalayıb getdilər. Bundan sonra media nümayəndələrimiz də daxil olmaqla bir neçə həm mülki vətəndaşlarımız, həm də hərbçilərimiz olmaqla həmin ərazidə minaya düşdülər. Bundan sonrakı dövrdəki rus hərbiçilərinin orada yerləşməsindən, faktiki olaraq ermənilərə havadarlıq etməsindən ruhlanan Ermənistan, növbəti etapda artıq məğlub tərəf kimi deyil, sanki özünü məğlub olmamış kimi apararaq faktiki revanşist fikirlər səsləndirməyə başladılar.

Ermənistan tərəfi həmin 10 noyabr bəyannaməsində nəzərdə tutulan kommunikasiya xətlərinin açılması məsələsi ilə bağlı cığallıq etməyə başladılar. Təbii ki, Azərbaycan bu bəyannamənin bağlanmasında vasitəçi tərəf olan Rusiyaya öz iradlarını bildirdi və ondan sonra yanvarın 11-i Moskva görüşü oldu. Həmin üçtərəfli görüşdə də konkret olaraq kommunikasiya xətlərinin açılması ilə bağlı sənəd qəbul olundu. Orada digər məsələlər faktiki olaraq müzakirə olunmadı, hətta müzakirə olunsa belə mətbuata açıqlanmadı. Təbii ki, 10 noyabr bəyannaməsində bir sıra müddəalar var ki, qarşı tərəf onu pozub və həyata keçirməyib. Təəssüflər olsun ki, bu məsələdə vasitəçi rolunu oynayan Rusiya da üzərinə öhdəlikləri götürmüş Ermənistana bu məsələlər ilə bağlı elə də ciddi reaksiya göstərmir və o pozuntular faktiki olarq həmin o rus hərbiçilərinin gözü önündə baş verib. Konkret olaraq hər şeyi kənara qoyaraq bir müddənin üzərində dayanmaq istəyirəm. 10 noyabr bəyannaməsinin 4-cü bəndində birmənalı olaraq göstərilirdi ki, rus hərbiçiləri əraziyə daxil olmaqla eyni zamanda erməni hərbi birləşmələri ərazidən çıxarılmalıdır".

*Rüqəyya Orucova*

# Soçi görüşü

# Ermənistanın

## potensialının tükəndiyini bir daha sübut etdi

### Hərb meydanında qazandığımız tarixi Zəfərin yaratdığı reallıqlar siyasi masada bənd-bənd yerinə yetirilir









**Noyabrın 26-da Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşün əsas müzakirə mövzusu 2020-ci ilin noyabr Bəyanatının, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını müəyyənləşdirən 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişatı ilə bağlı oldu.**

Üç saata yaxın davam edən görüşdə regionda sabitliyin möhkəmləndirilməsi istiqamətində atılmalı olan addımlar, Qarabağda dinc həyatın bərqərar olmasına dair məsələlər, eyni zamanda, bir il ərzində görülən işlər qiymətləndirilib, nəqliyyat şəbəkələrinin, o cümlədən Zəngəzur dəhlizinin açılmasının vacibliyi vurğulanıb, delimitasiya üzrə komissiyanın yaradılması barədə razılığa gəlinib, birgə Bəyanat qəbul edilib. Soçi görüşü və imzalanmış üçtərəfli Bəyanat Vətən müharibəsindən sonra Azərbaycanın bölgədə yaratdığı yeni geosiyasi reallıqların və ölkəmizin diplomatik müstəvidə həyata keçirdiyi aktiv fəaliyyətin nəticəsidir. Xüsusən də Bəyanatda təsbit edilən müddəalar Azərbaycan diplomatiyasının bu istiqamətdə qarşıya qoyduğu məqsədlərinə tam uyğundur. Bəyanat Qafqaz regionunun gələcək inkişafı baxımından böyük ümidlər yaradır. Bu, yalnız münaqişə tərəfi olmuş iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün deyil, ümumilikdə Qafqaz regionunun beynəlxalq əməkdaşlıq platformasına çevrilməsi baxımından böyük perspektivlər vəd edir.

Soçi görüşü həm də onu göstərdi ki, 44 günlük müharibədə rəşadətli Azərbaycan Ordusu tərəfindən hərbi potensialı məhv edilən Ermənistan savaşdan ötən dövrdə özünün diplomatik potensialının da tükəndiyini dərk edib. Bununla belə, Soçi görüşünün noyabrın 9-da baş tutmaması üçün müxtəlif bəhanələr səsləndirən, hələ də digər dövlətlərdən işğalçılıq maraqlarını davam etdirmək, yaxud ölkəsində revanşizmi inkişaf etdirmək üçün siyasi vədlər alan, əvəzində isə regionu ayrı-ayrı siyasi qüvvələrin ziddiyyət və toqquşma obyektinə çevirmək istəyən Ermənistanın siyasi rəhbərliyi hər nə qədər cəhd göstərsə də, Rusiyanın vasitəçiliyi ilə bu görüşün noyabrın 26-da keçirilməsindən imtina edə bilmədi. Yəni, hərb meydanında qazandığımız tarixi Zəfərin yaratdığı reallıqlar və tələblər siyasi masada bənd-bənd yerinə yetirilir. Soçidə baş tutan məlum tarixi görüşün nəticələri regionda sülhün bərqərar olacağına dərin inam yaradır. Bu əminliyi əsaslandıran məqamlar isə ondan ibarətdir ki, Soçidə imzalanmış sənəddə "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə rast gəlinmir. Bu isə o deməkdir ki, söhbət artıq postmünaqişə dövründən gedir. Sənəddə ATƏT-in Minsk qrupunun adı çəkilmir. Bu, artıq Minsk qrupunun da tarixdə qaldığını göstərir. Soçi görüşü Azərbaycanın diplomatik qələbəsidir və bu qələbədə noyabrın 16-da sərhəddə erməni təxribatının qarşısının alınması və ordumuzun öz mövqelərini daha da gücləndirməsinin də rolu mühüm önəm daşıyır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, biz Zəngəzur dəhlizini açacağıq - istər danışıqlarla, istərsə güc yolu ilə. Bu il noyabrın 16-da işğalçı ölkənin təxribatına verilən layiqli cavabdan sonra Ermənistanı güzəştə məcbur edəcək yeni reallıqlar ortaya çıxıb. Belə ki, Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər göstərir ki, biz Zəngəzur dəhlizinin açılmasına doğru gedirik. Prezident Vladimir Putinin çıxışında "nəqliyyat dəhlizləri"nin xatırlanması, həmçinin imzalanmış sənəddə "dəmir yolu və nəqliyyat əlaqələrinin açılmasına" dair bəndlər Zəngəzur dəhlizinin gerçəkləşəcəyindən xəbər verir. Soçidə humanitar məsələlərdə də irəliləyişə nail olmuşuq - bağlı qapılar arxasında aparılan danışıqlardan sonra mina problemi və ermənilərin indiyədək Azərbaycana verməkdən imtina etdiyi "mina xəritələri" məsələsində də müsbət irəliləyiş olacaq.

Görüşün maraq yaradan daha bir məqamı isə ondan ibarətdir ki, hər vəchlə "hərbi əsirlərimiz qaytarılmır" deyib, Ermənistanı dünyanın ən əzilmiş xalqı kimi beynəlxalq ictimaiyyətə çatdırmağa çalışan Paşinyanın "arzuları" bu dəfə də reallaşmadı. Çünki görüş zamanı hərbi əsirlərdən və Qarabağ statusundan danışılmadı.

Soçi görüşü zamanı Ermənistanın diplomatik cəhətdən də məğlub olması göz önündə idi. Hətta Rusiya mətbuatında, eləcə də xarici mətbuatda gedən yazılarda da Azərbaycan Prezidenti İlham Əliyevin Soçi görüşü zamanı əldə etdiyi növbəti uğuru, Ermənistanın isə yenidən iflasa uğraması açıq-aydın müşahidə edilir.

Görüşün Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə bu ilin sonunadək Brüsseldə keçirilməsi nəzərdə tutulan Azərbaycan-Ermənistan görüşündən əvvəl keçirilməsi isə bir daha göstərdi ki, Rusiya dünyanın ən böyük dövləti olaraq regionda baş verən bütün proseslərdə maraqlıdır.

Bu görüş, eyni zamanda, Rusiya ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu göstərdi. Soçi görüşü zamanı Azərbaycan və Rusiya dövlət başçıları arasında səmimi və isti münasibətlərin olduğunu gördük. Vladimir Putin azərbaycanlı həmkarı İlham Əliyevə hörmət və ehtiramla yanaşırdı. Bu, onu göstərir ki, Azərbaycan və Rusiya arasında münasibətlər bundan sonra da yüksələn xətlə inkişaf edəcək. Rusiya Prezidentinin Azərbaycanda rus dilinə və mədəniyyətinə göstərilən diqqətə görə təşəkkürünü bildirməsi də diqqət çəkən məqamlardan biri oldu. Vladimir Putinin bu fikirləri Azərbaycanın multikultural dəyərlərinə verdiyi yüksək qiymət olmaqla yanaşı, digər tərəfdən, antirusiya meyillərin kəskin artdığı Ermənistana ünvanlanmış ciddi xəbərdarlıq idi. Ümumilikdə Soçi görüşü Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsi idi. Soçi görüşündə Azərbaycanın mövqeyindən və iradəsindən kənar heç bir məqam müşahidə olunmadı.

Gözləntilər isə odur ki, Azərbaycan və Rusiya dövlət başçılarının arasındakı şəxsi dostluq münasibətləri və rəsmi Moskvanın Cənubi Qafqazda sülhə, əmin-amanlığa nail olmaq cəhdləri öz müsbət nəticələrini verəcək. Dəfələrlə deyildiyi kimi, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi təkcə bu iki ölkənin deyil, ümumiyyətlə, regionun bütün ölkələrinin maraqlarına cavab verəcək. Proseslərin gedişi isə göstərir ki, belə bir sazişin imzalanacağı tarix uzaqda deyil.

Prezident İlham Əliyev Soçi görüşünün ardınca Türkmənistanın paytaxtı Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) növbəti XV Zirvə Toplantısında iştirak etdi. Diplomatik uğurları davam etdirən ölkə başçısı burada da Ermənistana növbəti siyasi zərbə vurdu. Belə ki, Aşqabad Bəyannaməsində bir sıra önəmli məsələlər yer aldı. Bəyannamədə "Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsinin Qafqaz regionunda davamlı sülhə və iqtisadi tərəqqiyə yol açacağına inanırıq", ifadələrinin yer alması, İƏT-ə üzv dövlətlər tərəfindən Azərbaycan hökuməti və xalqına işğal olunmuş ərazilərin azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası münasibətilə təbriklərin ünvanlanması Azərbaycanın uğurlu diplomatiyası nəticəsində Ermənistana növbəti zərbədir.

Görünən odur ki, Azərbaycanın bölgədə inkişaf etmiş bir dövlət olması region ölkələrinə də müsbət təsir edir. Bu səbəbdən Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi məsələsini hər bir ölkə diqqətdə saxlayır. Bütün bu proseslər Azərbaycan rəhbərliyinin, ölkə başçısı İlham Əliyevin məqsədyönlü diplomatik siyasəti, bu siyasətdə əldə etdiyi uğurların nəticəsidir ki, bu gün ölkəmiz beynəlxalq səviyyəli görüşlərdə bütün diqqətləri öz üzərinə çəkir.

*Yaqut Ağaşahqızı*

# “Paşinyan Zəngəzur dəhlizinə Rusiyanın nəzarət etməsini istəmir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri vədigər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*







**Tanınmış rusiyalı politoloq Sergey Markov ”Caliber” analitik mərkəzinə müsahibəsində Soçi görüşü və orada regional kommunikasiyalar və nəqliyyat dəhlizlərinin açılmasının sürətləndirilməsi məsələləri müzakirə olunarkən Ermənistanın mövqeyinin səbəbləri haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Məlum olduğu kimi, Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşü keçirildi, onun yekununda tərəflər 3 əsas məsələ üzrə razılığa gəliblər. Birincisi, Azərbaycanla Ermənistan arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərinin yaradılmasıdır. İkincisi, humanitar məsələlər, üçüncüsü isə nəqliyyat dəhlizlərinin açılmasıdır. Rusiya prezidentinin dediyi kimi, bu, həm dəmir yoluna, həm də avtomobil yoluna aiddir. Bundan əlavə, tərəflər regionun iqtisadi potensialının üzə çıxarılması üçün konkret layihələrin mümkün qədər tez işə salınmasının vacibliyini vurğulayıblar. Soçi görüşündə Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan Paşinyan nəhayət ki, bu layihəyə yaşıl işıq yandırdı deyə bilərikmi?***

- Hələ yox, bu haqda hələ danışa bilmərik. Görürük ki, nəqliyyat dəhlizlərinin açılmasının zəruriliyi elan edilib, amma bu, əvvəllər də açıqlanıb. Yalnız normal işləyən strukturlar yaradılanda vəziyyətin irəli getdiyini deyə bilərik. Üçtərəfli bəyanat imzalanandan bəri kommunikasiyaların bloklanmasında vəziyyət dəyişməyib. Amma bu məsələ ilə bağlı baş nazir müavinlərinin toplantısının baş tutması çox yaxşı əlamətdir.

Amma ola bilər ki, vəziyyət yenidən donacaq, Paşinyan onu qıcıqlandırmamaq üçün Putinlə razılaşıb, sonra da danışıqlara mane olmaq üçün baş nazirin müavininə siqnal verəcək.

Mən Azərbaycanın danışıqlarda irəli getdiyinə dair kifayət qədər şərhlər görürəm, amma vicdanlı bir insan kimi sizə açıq deyim: bu gün biz bu barədə dəqiq danışa bilmərik. Bəli, müəyyən ümidlər var, ancaq üç baş nazirin müavininin görüşündən sonra dəqiq əminlik barədə danışmaq mümkün olacaq. Ona görə də, hələlik, nikbinliyimiz cilovlanmalıdır, amma mən iki nikbinlik əlavə edəcəyəm.

Birincisi, bir çox insanlar adətən bu bəyannamənin haradan başladığına diqqət yetirmirlər. Tərəflər 9-10 noyabr sazişinin tam icrasına sadiq olduqlarını təsdiqləyiblər. Əbəs yerə liderlər bunu birinci məqam kimi qoymurlar, çünki ictimaiyyət əslində bunların bir növ vəzifə sözləri olduğunu düşünür. Amma bu sözlər ən mühüm və bəyannaməyə sadiqlik ən mühüm nəticədir, çünki Qarabağla bağlı üçtərəfli bəyanatdan sonra Ermənistanda çox ciddi tənqidlər və nümayişlər olmuşdu. Bu, optimizmin ilk yaxşı nümunəsidir.

İkinci nöqtə. Düşünürdük ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə Rusiya ilə Avropa İttifaqı arasında hansısa çəkişmə olacaq. Üstəlik, Aİ-nin yalnız Rusiyaya qarşı pis nəsə etmək üçün bu razılaşmanı pozmağa çalışacağı qorxusu var idi. Lakin prezident Vladimir Putin bu məsələ ilə bağlı Aİ rəhbərliyi ilə əlaqə saxladığını və hər hansı bir çəkişmənin sülh prosesinə xələl gətirməyəcəyinə ümid olduğunu bildirib.

***- Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Ermənistanla uzunmüddətli qarşıdurmanın səhifələrini vərəqləməmək və normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmindədir. Öz növbəsində Paşinyan bildirib ki, o, Ermənistanın ölkə və region üçün dinc inkişaf erası açmağa hazır olduğunu təsdiqləyir. Sizcə, Soçi görüşündən sonra Bakı və İrəvan sülh müqaviləsinin əldə olunmasında irəli gedə biləcəkmi? Ermənistan tərəfi bununla razılaşacaqmı?***

- Sülh müqaviləsində adətən sərhədlərin qarşılıqlı tanınması nəzərdə tutulur ki, bu da o deməkdir ki, əslində Ermənistan Azərbaycanın Qarabağ da daxil olmaqla sərhədlərini tanımalıdır. Amma hesab edirəm ki, bu gün bu, hələ reallıq deyil.

Ermənistan ümid edir ki, Qarabağın həmin hissəsi- Laçın dəhlizi və Xankəndi Ermənistanda qalacaq. Üstəlik, bunu necə edəcəyinə dair bir plan hazırlamaq istəyirlər. Bu bölgəni yavaş-yavaş beynəlxalq protektorata təqdim etmək istəyirlər ki, onu Ermənistan yox, hansısa başqa xalqın əsgərləri, məsələn, ATƏT bayrağı altında Rusiya və ya Fransa sülhməramlıları qorusun. Ona görə də hələlik nə erməni ictimaiyyəti, nə də Ermənistan rəhbərliyi Azərbaycanın bütün Qarabağı əhatə edəcək sərhədlərini tanımağa hazır deyil.

Ümumiyyətlə, bütün müqavilələr konkretlik tələb edir. Bu, Zəngəzur dəhlizinin açılmasına da aiddir. Ermənistan nəzəri olaraq bunun əleyhinə deyil, lakin qorxur ki, Azərbaycanın xeyli gücləndiyi şəraitdə gələcəkdə bu dəhliz ekstraterritorial olacaq və hansısa böhran zamanı ondan Zəngəzuru Azərbaycanın, xüsusən də Azərbaycanın bir hissəsi etmək üçün istifadə etmək olar. Çünki ora çox qədim Azərbaycan torpağıdır. Bu əsasla da Zəngəzur dəhlizinin qarşısını kəsir.

Ermənistan İrandan dəstək alır və o, ekstraterritorial nəqliyyat dəhlizlərinin olmasını istəmədiyini açıq şəkildə bildirir. Və əgər bu nəqliyyat dəhlizləri ekstraterritorial deyilsə, o zaman azərbaycanlılar və türklər bu dəhlizlərdən necə istifadə edə biləcəklər? Belə olan halda onlar daim bu yolla qisas alacaq erməni diversiya və terror qruplarının hücumu təhlükəsi altında olacaqlar. Ona görə də konkret məsələlər var ki, onları həll etmək lazımdır.

***- Amma Zəngəzur dəhlizinə nəzarəti Rusiya FTX-nin Sərhəd Xidmətinin həyata keçirəcəyi deyilir. Bəs Ermənistanda qorxular nədən ibarətdir?***

- Razıyam ki, belə bir qərar var və doğru, düzgün qərar idi, amma ola bilsin ki, qərbyönlü siyasətçi olan Paşinyan Rusiyanın bu dəhlizə nəzarət etməsinin əleyhinədir və yəqin ki, ona Fransadan deyirlər ki, bunu etməməlisən, Zəngəzur dəhlizinə nəzarəti Rusiyaya verməyə ehtiyac yoxdur. Üstəlik, bu halda Zəngəzur dəhlizi həm də Rusiya ilə Türkiyə arasında çox güclü bir əlaqə rolunu oynayacaq və belə yaxınlaşma ABŞ və Avropa İttifaqını da çox narahat edir. Ona görə də, dəhlizin açılması qərarını Ermənistan da təsdiqləməlidir.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
1 dekabr
2021-ci il

# "Omikron" ştammını öyrənmək üçün alimlərə

## NƏ QƏDƏR VAXT LAZIMDIR

Koronavirusun "Omikron" ştamını ətraflı öyrənmək üçün alimlərə təxminən iki-üç həftə vaxt lazımdır. SİA xəbər verir ki, bunu Avropa Komissiyasının sədri Ursula Von der Leyen deyib. "Biz "Omikron" haqqında hər şeyi bilmirik, lakin bu ştam narahatlıq doğurur. Alimlərə və peyvənd istehsalçılarına yeni ştam haqqında tam təsəvvürə malik olmaq üçün iki-üç həftə vaxt lazımdır. Bunu etmək vacibdir. Bu vaxtdan istifadə edin" - deyə, o əlavə edib. Onun sözlərinə görə, Avropa İttifaqı üçün yeni ştamın yaranması fonunda ən vacib məqam insanların təmas dairəsinin daralması və peyvəndləmə olacaq.

*Aysel Məmmədova*



# Messi 7-ci dəfə "Qızıl top" mükafatını qazandı

"France Football" nəşrinin təsis etdiyi "Qızıl top" mükafatının qalibi müəyyənləşib. Belə ki, futbol üzrə Argentina millisinin və PSJ-nin hücumçusu Lionel Messi bu ada layiq layiq görülüb.

34 yaşlı hücumçu 7-ci dəfə bu mükafata sahib çıxmaqla öz rekordunu yeniləyib. "Bavariya"nın polşalı hücumçusu Robert Levandovski 2-ci, "Çelsi"nin italiyalı yarımmüdafiəçisi Jorjinyo isə 3-cü olub. Mükafata əsas namizədlərdən sayılan "Real"ın fransalı hücumçusu Kərim Benzema 4-cü yeri tutub.

# Orqanizmə kifayət qədər su daxil olmayanda insan kökəlir



Mütəxəssislər deyirlər ki, suyun insan orqanizminə 50-dən çox faydası var. Gün ərzində 2 litr maye qəbul edilməsi isə vacib məsələlərdən biridir. Su qanda, sümükdə və beyində optimal nəm səviyyəni saxlamağa kömək edir, onurğa və beynin fəaliyyəti üçün vacibdir. Çox su içmək oynaq ağrılarının qarşısını alır, həzm prosesini sürətləndirir, həm də qidanın qəbulunu, toksinlərin və şlakların orqanizmdən xaric olmasını təmin edir.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Hər səhər yuxudan oyanan kimi 1 və ya 2 stəkan, hər dəfə yeməkdən əvvəl yarım stəkan su qəbul edilməsi çox faydalıdır. Suyun qidalanmadan yarım saat əvvəl və qidalanmadan 1 saat sonra qəbul edilməsi məsləhətdir. Təəssüf ki, əksər hallarda qidadan əvvəl su qəbul edilmədiyinə görə, qidadan sonra tez susuzlaşma baş verir".

Acanda çox yeməmək olar. Amma susayanda mütləq su içmək lazımdır. Əks halda bədənin həddindən artıq su itirməsi halında toxuma boşluqları, oynaqlar, böyrəklər və qaraciyərdə problemlər yarana bilər.

"Su qəbizlikdən əziyyət çəkənlər və həzm problemi olanlar üçün çox əhəmiyyətlidir. Orqanizmə kifayət qədər su daxil olmayanda kökəlmə baş verir, çünki orqanizmdə gedən bütün proseslərdə su böyük rol oynayır",- deyə həkim-terapevt əlavə edib.

Su bütün qida, vitamin və mineralların təməlidir. Soyuq aylarda olmasa da, havanın isti keçdiyi günlərdə çoxlu su qəbul etmək lazımdır.

# 74 yaşlı qadın inəklə evlənib

**Kambocada 74 yaşlı bir qadın ərinin inək kimi reinkarnasiya edildiyinə inanır. Kratie rayonunda yaşayan 74 yaşlı Khim Hanq inəyin onu öpdüyünü və pilləkənlərlə yuxarı qalxdığını bildirib. SİA xarici mətbuata istinadən xəbər verir ki, inəyin də "əri ilə eyni xarakterə" sahib olduğunu ifadə edən Hanq, bu səbəbdən heyvanla evlənməyə qərar verdiyini ifadə edib. Kənd sakinləri bildiriblər ki, Hanq mərasimlə inəklə evlənib. "The Sun" qəzetinin yazdığına görə, Hanq mərhum ərinin istifadə etdiyi yastıqlardan inək üçün çarpayı da düzəldib. "Reuters"ə danışan Hanq, "İnəyin mənim ərim olduğuna inanıram, çünki o nə etsə, bu inək də eynisini edir" deyib.**

***Turqay Musayev***



# "Nar" milli internet resurslarına dəstək olur

**Azərbaycanda milli internet resurslarının inkişafına dəstək məqsədilə, yüksək keyfiyyətli mobil rabitə və internet təminatçısı kimi "Nar" növbəti dəfə "NETTY" milli internet mükafatına dəstək olur.**

Müsabiqədə iştirak üçün artıq "NETTY" təşkilat komitəsinə 6 əsas nominasiya üzrə 200-dən çox müraciət daxil olub. Növbəti mərhələdə Ekspertlər Şurası və Virtual Münsiflər heyəti "Dövlət və Cəmiyyət", "Biznes və Maliyyə", "Elm, Təhsil və İnnovasiya", "Səhiyyə, İdman və Turizm", "İnformasiya və Xəbərlər" və "Mədəniyyət, İncəsənət və Yaradıcılıq" nominasiyaları üzrə təqdim edilən layihələri qiymətləndirəcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**